Şottki nəzəriyyəsinə görə YSPE – AlN və TiC kompozitində fazalararası sərhəddə potensial çəpərin φ_s – hündürlüyü ayrı – ayrı komponentlərin çıxış işindən nəzərəçarpacaq dərəcədə asılı olmalıdır. BN, AlN və TiC-lə disperqasiya olunmuş YSPE əsasında kompozit üçün stasionar cərəyanın gərginlikdən və temperaturdan asılılığının analizindən fazalararası sərhəddə potensial çəpərin φ_s – hündürlüyü təyin edilmişdir və bu qiymət yuxarıda göstərilən kompozitlər üçün uyğun olaraq: 0,67; 0,64; 0,68 eV olmuşdur. Əgər nəzərə alsaq ki, φ_s – nə qədər kiçik olarsa fazalararası sərhəddə kimyəvi əlaqələrin sayı və deməli, fazalararası qarşılıqlı təsir bir o qədər çoz olacaq, onda, kompozitin φ_s və λ – arasında qarşılıqlı təsiri haqqında əminliklə demək olar [5]. φ_s – in kiçik olması sərhədlərin kiçik istilik müqavimətinə və deməli, kompozitin istilikkeçirməsinin yüksək qiymətinə uyğun gəlir (şəkil 7).



Şək. 7. İstilikkeçirmə əmsalının (λ) və potensial çəpərin hündürlüyünün (φ_s) emal müddətindən asılılığı.

Beləliklə, 6 və 7 şəkillərində göstərilən eksperimental nəticələr poliolefin və metal karbid və nitridləri əsasında kompozitlərin istilikkeçirməsini göstərir ki, bu da polimer fazanın üst molekulyar strukturu, molekullararası və fazalararası qarşılıqlı təsirlərlə təyin olunur. Fazalararası sərhəddə potensial çəpər sərhəddə gedən proseslərə həssas parametrdir və heterogen strukturların istilikkeçirməsi proqnozlaşdırmaq üçün istifadə edilə bilər.

---

1. *Алиев Х.И., Кулиев М.М., Исмайилова Р.С.* Влияние барьерного разряда на стабильность электретного состояния полиэтилена высокой плотности. ЭОМ, 2016, 52(5), 81-85.
2. *Алиев Х.С., Кулиев М.М.* Диэлектрическая проницаемость композитов ПЭВП/ TlInS2. Шестая Всероссийская Каргинская Конференция «Полимеры -2014» Том II. Сбор.докладов.В 2 частях. Часть вторая/стр.785. МОСКВА. 2014 г.
3. *Aliyev H.S.*, Influence of electric discharge processing of polyethylene on heat conductivity,electric and mechanical durabilities of composites on its basis. МОСКВА, Министерство Образования и Науки РФ,XV Международная Научно-Техническая Конференция.“Наукоемкие химические технологии-2014” (22 - 26 сентября 2014 г. Сбор. докладов. стр. 238-239.
4. *Aliyev H.S., Quliyev M.M.* Effect of Barrier Dicharge on Stability of Electret State of high –Density Polyethylene. Surface Engineering and Applied Electrochemistry, 2016, 52(5).P. 494-498.
5. *Рычков А.А., Трафинов С.А., Кузнецов А.Е., Соснов Е.А., Рычков Д.А., Малыгин А.А.* Ввлияние химического модифицирования поверхности полиэтилена высокого давления на его электретные свойства. Ж. Прикл. химии, 2007, т.80, №3, 463-467

ВЛИЯНИЕ СТРУКТУРНЫХ ГЕТЕРОГЕННОСТЕЙ НА ТЕПЛОПРОВОДНОСТЬ КОМПОЗИТОВ

АЛИЕВ Х.С.

Эксперименты показано, что теплопроводность в композитах обуславливается переносом с помощью частиц наполнителя тепловой энергии из пограничного слоя полимера и реакционной способностью определения значения термического сопротивления на границе раздела фаз поверхности контакта полимер – наполнитель. И в заключении от этого зависит свойства теплопроводности композита.

Ключевые слова: полимер, теплопроводность, гранича раздела фаз, многофазная система, макромолекула.

INFLUENCE OF STRUCTURAL HETEROGENEITY ON COMPOSITE HEAT CONDUCTIVITY

ALIYEV H.S.

The experiments showed that the thermal conductivity in the composites is caused by the transfer of thermal energy from the polymer boundary layer using particles of the filler and the reactivity of determining the thermal resistance at the interface of the polymer-filler contact surface. And in conclusion, the thermal conductivity of the composite depends on this.

Keywords: polymer, thermal conductivity, interface, multiphase system, macromolecule.

УКД 539.2

POLİMER NANO SE ƏSASLI KOMPOZİTİN QURULUŞ VƏ ELEKTROFİZİKİ XASSƏLƏRİNƏ OPTİK ŞÜALANMANIN TƏSİRİ

NƏSİROVA A.Ş.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Azərbaycan, Bakı, AZ1010, Azadlıq pr., 20
Email: aysel.nasirova@asoiu.edu.az

Məqalədə müxtəlif polimer materiallardan matrisası və fotohəssas nano yarımkeçiricilərdən qatqısı olan polimer-nano yarımkeçirici kompozitlərin elektrik keçiriciliyinə işığın təsiri tədqiq edilib. Alınmış təcrübi nəticələrin müqayisəli təhlili nəticəsində müşahidə olunan asılılıqların fiziki mahiyyəti aydınlaşdırılıb.

Açar sözlər: kompozit, polimer, nanomaterial, yarımkeçirici.

Üzvi və qeyri–üzvi materiallarda olduğu kimi, polimer–nano yarımkeçirici kompozitlərdə də elektrik keçiriciliyinin yaranmasında həlledici rol onayan əsas amil materialın növündən asılı olmayaraq müxtəlif tip elektron keçidləri hesabına materialın keçirici zonasında sərbəst elektronların əmələ gəlməsidir. Ona görə də polimer əsaslı və fotohəssas yarımkeçirici qatqılı müxtəlif kompozitlərdə elektrik hadisələrinin başvermə mexanizmini müəyyənləşdirmək üçün həmin materialların müxtəlif şəraitlərdə elektrik xassələrinə işığın və injeksiyanın təsirini ətraflı tədqiq etmək məqsədəuyğundur.

Təqdim olunan bu işdə polimer-nano Se kompozitində müxəlif xarici şəraitlərdə elektrik keçiriciliyinə işığın təsirinin xüsusiyyətlərinin eksperimental tədqiqi zamanı bizim tərəfimizdən alınmış nəticələr və onların keyfiyyətcə elmi müzakirəsi təqdim olunur. Tədqiq etdiyimiz kompozitlərdə matrisa olaraq üç müxtəlif polimer materialdan- yüksək sıxlıqlı polietilendən (YSPE), polipropilendən (PP) və polivinildenftoriddən (PVDF) istifadə edilmişdir. Polimer fazasının (matrisanın) hər üçünün qadağan olunmuş zonasının eninin qiyməti kifayət qədər böyük olduğu üçün ($\geq$10eV) həmin kompozitlərin hər biri elektrik keçiriciliyi yüksək olmayan (çox böyük xüsusi elektrik müqavimətinə malik olan) materiallardır.

Bu polimerlərin elektrik keçiriciliyi onlarda sərbəst yükdaşıyıcıların (elektronların) müxtəlif yolla sərbəstləşməsi-valent zonadan keçirici zonaya, kvazi-qadağan olunmuş zonadakı lokal enerji səviyyələrindən keçirici zonaya və valent zonadan kvaziqadağan olunmuş zonadakı boş lokal enerji səviyyələrinə keçməsi, eləcə də müxtəlif xarici təsirlərlə yaradılmış müxtəlif tip (sərbəst və ya bağlı) eksitonların dissosiasiyası hesabına yaranır.

Təcrübi olaraq hər bir polimer–nano Se kompozitinin qaranlıqda və işıqlandırıldığı haldakı volt–amper xarakteristikaları ölçülmüşdür.

Aydınlıq üçün qeyd etmək lazımdır ki, tədqiq olunan kompozitlərin hər birinin volt–amper xarakteristikasını öyrənərkən aşağıdakı parametrlər optimallaşdırılmışdır:

- fotohəssas yarımkeçiricinin (Se – in) kompozitdəki həcmi payı (Φ,%);
- kompozitin polyarlaşma müddəti (t_p,san);
- polyarlaşma şəraitində kompozitə tətbiq olunmuş xarici elektrik gərginliyi (U_p,V);
- polyarlaşma zamanı nümunənin səthinə düşən işığın intensivliyi (E_i, mVt/sm^2).

Ölçmələrdən alınmış nəticələrinin təhlili əsasında müəyyənləşdirilmişdir ki, həmin bu kəmiyyətlərin optimal qiymətləri uyğun olaraq aşağıdakı kimidir: Φ=(30 – 60) % həcmi; t_p=(0,25 – 0,5)saat; U_p=(20 – 150)V; E_i=(200 – 400) mVt/sm^2.

İşığın təsiri davam etdiyi şəraitdə tədqiq etdiyimiz nümunələrin volt – amper xarakteristikalarının ölçülməsi və onun (nümunənin üzərinə düşən işıq dəstəsinin) intensivliyinin optimal qiymətinin seçilməsi üçün $I_f/I_q=f(E_i)$ asılılığı qurulmuş və bu asılılığın

qurulmuş qrafikinə əsasən aşkar edilmişdir ki, I_f/I_q nisbəti E_i-dən asılı olaraq əvvəlcə kəskin artır, sonra isə ($E_i \geq 400mVt/sm^2$ olduqda) tədricən sabitləşməyə başlayır. (şək.1.)



Şək.1. Müxtəlif kompozitlərdə I_f/I_q nisbətinin işığın intensivliyindən asılılığı.
1.YSPE – Se; 2. PP – Se; 3. PP –Se; 4. PVDF –İnSe ; 5. F42 –İnSe;
6. F42 – Se; U=10V T=300K.

Kompozitdəki işığahəssas yarımkeçirici fazanın (Se-nin) optimal həcmi payını seçərkən isə $I_f/I_q=f(\Phi)$ asılılığı nəzərə alınmışdır. Əldə olunan nəticələr göstərmişdir ki, PVDF – nano Se kompozitləri üçün Φ – in optimal qiyməti 30 – 60% həcmi intervalında dəyişir.

Müqayisə üçün PVDF matrisalı və fotohəssas nano-ZnS qatqılı kompozitdə də eyni ölçmələr aparılmışdır. Bu təcrübi ölçmələrdən alınmış nəticələr göstərmişdir ki, $I_f/I_q=f(\Phi)$ asılılıqlarında müşahidə olunan maksimum, kompozitin tərkibindəki fotohəssas yarımkeçirici fazanın materialından da əhəmiyyətli dərəcədə asılıdır.

İlk yanaşmada belə bir nəticəyə gəlmək olar ki, tədqiq olunan kompozitlərdəki fazalararası potensial çəpərin hündürlüyü I_f/I_q- nin qiymətinə əhəmiyyətli dərəcə təsir göstərir. Bu maraqlı və mürəkkəb mexanizminə malik olan aslılığın fiziki mahiyyətini müəyyənləşdirmək üçün polimer matrisa kimi dielektrik nüfuzluğu *(ε)*, xüsusi həcmi elektrik müqaviməti *(R_v)* müxtəlif, lakin təbiətcə bir–birinə yaxın olan polimerlərdən (YSPE, PP və PVDF –dən) istifadə edilmişdir. Aşkar edilmişdir ki, $I_f/I_q=f(\Phi)$ asılılığındakı maksimumlara uyğun gələn həcmi payı polimer matrisanın materialından asılı olaraq kəskin dəyişir.

Deməli, həm qeyri-üzvi, yəni yarımkeçirici faza və həm də polimer matrisa I_f/I_q parametrinə kəskin təsir edir. Belə ki, polimer matrisanın dielektrik nüfuzluğunun qiyməti böyük olduqca I_f/I_q parametri qiymətcə yüksək, həcmi pay baxımından isə kiçik olur.

Apardığımız ölçmələrdən əldə olunmuş eksperimental nəticələrin müqayisəli təhlili göstərir ki, $I_f/I_q=f(U)$ asılılığı eksterimal xarakterlidir. Bu asılılığın eksterimal qiymətə uyğun gərginliyinin qiyməti isə kompozitin tərkibindəki Se-nin həcmi payından asılıdır və Se-nin həcmi payı artdıqca $I_f/I_q=f(U)$ asılılığının maksimal qiymətə uyğun gərginliyi kiçik qiymətlərə tərəf dəyişir.

Eyni zamanda bu tədqiqatlar zamanı həm də aşkar edilmişdir ki, qeyri–üzvi fotohəssas nano yarımkeçirici qatqı və polimer matrisadan ibarət kompozit materiallar müəyyən rejimdə yalnız temperaturun təsiri şəraitində kristallaşarsa, onda həmin kompozit materialların fotokeçiriciliyi (eləcə də digər fotoelektrik xassələri) kəskin fərqlənmir. Fikrimcə bu mühüm və həm də başvermə mexanizmi kifayət qədər mürəkkəb olan effekt fotokeçiricilikdə polimer fazanın (matrisanın) mühüm rolunun olmasının göstəricisidir.

NƏTİCƏ

Tədqiq olunan polimer matrisalı nano Selen (və ya İnSe) işığahəssas komponentli kompozitlərdə fotorezistiv effektinin yaranmasının başlıca səbəbi daxili fotoeffekt (fotokeçiricilik) nəticəsində yaranmış sərbəst yükdaşıyıcılarının tətbiq olunan elektrik sahəsinin və fazalararası sərhəddəki potensialın birgə təsiri şəraitində köçürülməsidir.

Polimer – fotohəssas nano yarımkeçirici (Selen və ya İnSe) kompozitində xarici elektrik sahəsinin və işığın birgə təsiri şəraitində meydana gələn potensiallar fərqi tətbiq olunan xarici gərginliyi kompensasiya edərək elektrikkeçiriciliyinin optik sönməsini yarada bilər.

1. *Абрамов В.Н., Пожидаев Е.Д., Тютнев А.П., Саенко В.С., Ванников А.В.* Подвижность носителей заряда в полимерах // Высокомолекулярные Соединения А, 1987, т. 29, № 2, с. 260 – 264.
2. *Алешин А.Н.* Транспорт носителей заряда в проводящих полимерах на металлической стороне перехода металл – диэлектрик // ФТТ, 2010, т. 52, в.11, с.2162 – 2184.
3. Аморфные и поликристаллические полупроводники / Под ред. В.Хейванга. М.: Мир, 1987, 158 с.
4. *Ванников А.В.* Органические полимерные светоизлучающие устройства //Российский химический журнал, 2001, т. XLV, № 5 – 6, с. 41 – 50.
5. *Scott J. C., Pautmeier L. Th., Moerner W. E.* Photoconductivity studies of photorefractive polymers //JOSA B, 1992, v. 9, No 11, p. 2059 – 2064.
6. *Галиханов М.Ф., Борисова А.Н., Дебердеев Р.Я.* Изменение электретных характеристик полимерных композиций при переработке их в изделия // Журнал прикл. химии, 2005, т. 78, в. 5, с. 836 – 839.
7. *Дувакина Н.И., Ткачева Н.И.* Выбор наполнителей для придания специальных свойств полимерным материалам // Пласт. массы, 1989, № 11, с. 46 – 48.
8. *Ельцова А.В.* Светочувствительные полимерные материалы. Л.: Химия, 1985, 296 с.

ВЛИЯНИЕ ОПТИЧЕСКОГО ИЗЛУЧЕНИЯ НА СТРУКТУРУ И ЭЛЕКТРОФИЗИЧЕСКОЕ СВОЙСТВО КОМПОЗИТА НА ОСНОВЕ ПОЛИМЕР НАНО-SE

НАСИРОВА А.Ш.

Использование наполнителей позволяет изменять механические, электромагнитные, физико-химические характеристики исходного полимера, а, в ряде случаев, и снижать стоимость конечного композита по сравнению со стоимостью полимера за счет использования более дешевого, чем полимер. Особый класс полимерных композиционных материалов представляют полимерные нанокомпозиты. В качестве добавки к полимерной матрице в них используются различные как по химическому составу, так и морфологии отдельных элементов наполнители. Отличительной особенностью данных наполнителей является размер составляющих их элементов (частиц, пластин, волокон и т. д.), который преимущественно должен быть менее 100 нм. В качестве наполнителя использовался Се.

Ключевые слова: композит, полимер, наноматериал, полупроводники.

EFFECT OF OPTICAL RADIATION AT THE STRUCTURE AND THE PHYSICAL PROPERTY OF THE POLYMER-BASED NANO-SE COMPOSITE

NASIROVA A.S.

Using fillers can change the mechanical, electromagnetic, physical and chemical characteristics of the original polymer, and, in some cases, and reduce the cost of the final composite, as compared with the cost of the polymer through the use of a cheaper than the polymer. A special class of polymer composites are polymer nanocomposites. As an additive to the polymer matrix are used in a variety of both chemical composition and morphology of individual elements excipients. The distinctive feature of these fillers is the size of the constituent elements (particles, plates, fibers), which preferably should be less than 100 nm. I use element- Se.

Keywords: composite, polymer, nanomaterial, semiconductor.

UOT 629.5-029:62

FTORPLAST-4 ƏSASLI KOMPOZİSİYANIN TRİBOTEXNİKİ XASSƏLƏRİNİ YAXŞILAŞDIRMAQ MƏQSƏDİ İLƏ DİSPERS DOLDURUCULARIN İSTİFADƏSİNDƏ MEXANİKİ XASSƏLƏRİN TƏSİRİNİN ASILILIĞININ ÖYRƏNİLMƏSİ

[1]RƏHİMOVA A.Ə., [2]MƏMMƏDOV Ç.M.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı şəh, Azadlıq pr ,16/21
ragimova.adila@mail.ru
chingiz.mamedov2018@inbox.ru

Məqalədə ftorplast-4 əsaslı kompozisiya materiallarının dispers doldurucular əlavəsi ilə onun, sürtünmə əmsalının kiçik, kimyəvi xassələrinin davamlı və mexniki xassələrinin yüksək olması göstərilir. Sıxılma zamanı möhkəmlik həddi nisbətən böyük olan və daha yüksək sürətlərdə işləyə bilən ftorplast əsaslı kompozisiyaların yaradılması tətbiqi çox böyük əhəmiyyət daşınması və ftorplastlara möhkəmləndirici kimi müxtəlif dispersli doldurucular əlavə etməklə ən effektli kompozisiya materialları ölçüsü 50-150 mkm olan qrafit, molibden-disulfit olması müşahidə edilmişdir.

Açar sözlər : ftorplast-4, doldurucu, dispers, kompozisiya, xassə, polimer.

Antrifriksion əlavələr daxil olunan materiallara əsasən təbəqəli anizotrop quruluşa malik olan doldurucular,(qrafit moliden-disulfid şüşə koks və s.) frorplast-4 -ə maye və ya plastik sürgü materialı kimi daxil edilir. Dolduruculara miqdarı və tipi materialın tətbiq olunan şəraitindən və sahəsindən (temperatur, yük, sürüşmə sürəti xarici mühit və s.) asılı olaraq müəyyən edilir. Ən effektli nəticələrdən olan qrafit və molibden – disulfid doldurucu əsasında kompozisiya materialı sayıla bilər.

Şəkil 1-də Ftorplast-4 bərk olmayan saplaqlar şəkilində olması istismar zamanı nun



Şəkil 1. Ftorplast-4-ün molekul üstü strukturu
a-təmiz ftorplast, b-qrafit, c-molibden, d-disulfid.

üst qatının intensiv deformasiya və yeyilmə intensivliyini artırmış və nümunələrin molekul kütləsi (1.5-5)x10^5 nümunələr istehsal etmək mümkündür.

Ftorplast– 4- ün sürtünmə əmsalı (statik və dinamiki) kiçik olduğundan sürtünən düyünlərdə geniş istifadə imkanına malikdir. Ancaq ftroplastın bərkliyinin az olması istismar zamanı onun üst qatının intensiv deformasiya və yeyilmə intensivliyini artırmış və eləcə də istilik keçiriciliyinin az olması sürtünmə prosesində səthin temperaturunu artırır və bu da sürtünmə əmsalının və yeyilmə intensivliyinin yüksəlməsi müşahidə edilir. Bu da öz növbəsində göstərilənlərə əsasən detalların tez sıradan çıxması ilə nəticələnə bilir. Bu səbəbdən də ftorplastın tribotexniki və s. xassələrini yaxşılaşdımaqdan ötrü ona müxtəlif dispers doldrucular əlavə olunmaqla ftorplast-4 əsaslı kompozisiya materialının yaradılması mümkünlüyünü göstərmək olar.

Nəticə etibarı ilə ən yaxşı antifriksion bitişmə müstəvisi üzrə böyük sahədə polyar qruplar olur ki, bunlar bitişmə müstəvisinə perpendikulyar istiqamətdə üyüdülmə zamanı hissəciklərin qırılmasından əmələ gəlir və kiçik sahəyə malik ovuntulara sahib olur.

Cədvəl - 1

Ftorplast-4-ün fiziki mexaniki tribotexniki xassələri

Plastik kütlənin adı	Sıxlığ P q/sm3	Elastiklik Modulu E	Dartılmada möhkəmlik həddi σ m.s mPa	(PV) Max MPa	Bərklik H MPa	Nisbi uzanma E %	İşçi Diaqramıc	Yağsız Sürmə əmsalı δ	Təzyiq P MPa	Sürət V,m/san
Ftorplast-4	2.18	410	20	0.026	35	470	0.04	0.04	0.7	0.5

Göstərilənləri nəzərə alaraq texnoloji avadanlıqlarda quru sürtünmə və ya zəif yağlama şəraitində nisbətən (≥3 m/c yüksək sürətlə işləyən kipləşdiricilərin hazırlanması üçün ftorplast–qrafit kompozisiyalarının işlənməsi üçün ilkin komponentlərin fraksiya tərkibinin kompozisiyanın mexaniki xassələrinə təsiri öyrənilməsi mütləqdir. Bu səbəbdən də aşağıda göstərilənləri nəzərə alaraq kompozisiyanın hazırlanması üçün istifadə olunan materiallar : ftorplast və qrafit götürülür. Hər ikisi ovuntu halında alınmış olur.

Qeyri adi xassəli polimerlərdən sayıldığı dağıdıcı mühitə qarşı dayanıqlığı yüksək olan dielektrik göstəricilərinə genis temperatur həddində 260°C sabit mexaniki xassə ilə xarakterizə olunur. Məhlul emal üsulları ilə çətin emal edilir və bu da onunla izah edilir ki ftorplast-4ün axma özlülük vəziyyətinə keçirmək mümkün deyil, çünki onun ərimə və parçalanma temperaturları çox yaxındır. 415°C dən başlayaraq polimerin qaz şəkilli maddələrin əmələ gəlməsi ilə intensiv parçalanması baş verir. Bu səbəbdəndə ftorplast-4ün emalı üçün ərimə üsulundan istifadə edilir.

Emal prosesi aşağıdakı mərhələlərdən keçir;

a) tozvari emala hazırlanması

b) hazırlanmış yarımməhsulun soyuq preslənməsi

c) qızdırmada yapışdırma (спекание) soyudulma dəzgahında emal

Cədvəl-2 dən göründüyü kimi ftorplast ovuntusunun dipersliyi 200 mkm-dan artıq və qrafitin dispersliyi isə əsasən 0.05-5.0 mkm olunmaqla ftorplasta nisbəttə xeyli yüksək olur. Bu da şixtə materialı hazırlayarkən və qrafitdən fraksiyalara ayrılmış və disperslikdən effektli istifadə oluna bilir.

Xüsusi qarışdırma üsulu ilə şixtə materialı hazırlanır. Bu laboratoriya şəraitində əl ilə xüsusi qarışdırma üsulu ilə aparılması mümkündür. Ftorplast kompozisiyasının hər birindən, qrafitin kütlə (9,0,16,6,23,30,35) faizi götürülür və şixtələr hazırlanır. Həmin şixtələrdən də (55x10x10 mm ölçülü prizmatik) nümunələr (10x10x10) ölçüdə doğranılıb sınaq maşınında sıxılmaqla

möhkəmliyi öyrənilir. Ftorplast kompozisiyasının hər birindən, qrafitin kütlə faizi götürülür, şixtələr hazırlanır və nəticədə kompozisiyaların mexaniki xassələrə təsiri öyrənilmək olur.

Cədvəl–2

Ftorplast - 4 və qrafitin tərkibi

Kompozisiyanın dispersliyi 50 mkm olan ftorplast-4 fraksiyasının tökülmə sıxlığını aşağı olduğundan texnoloji proseslərə onun aparılması mümkün olmadığı üçündə ölçüsü 50-

Ftoroplast-4		Qrafit	
Hissəciklərin ölçüsü, mkm	Hissəciklərin kütlə miqdarı %	Hissəciklərin ölçüsü , mkm	Hissəciklərin kütlə miqdarı, %
1600-2000	9	5-10	0.9
200-1000	85,5	1-5	2.5
50-150	5,0	0,5-1	4.1
50	1,0	0,05-1	92.0
--	--	0,05	0,5

150 mkm ftorplast ilə mümkün olmuşdur.

Cədvəl 3-dən göründüyü kimi kompozisiyalara əlavə, dispersliyi 50-150 mkm olan ftorplast-4 əsasında 30 % qrafit olan şixtə hazırlanıb sınaqlar aparılmış və göstərilmişdir ki, sıxılma zamanı 22,6–24,2 MPa möhkəmlik həddi ətrafında almaq olur.

Nümunələrin mikroquruluşunun yoxlanılmasından sonra nəticələrin aşağı olması aşkar etmək olur. Müşahidələr zamanı müəyyən etmək olar ki, bişirildikdən sonra qrafit hissəcikləri polimer matrisada bircinsli yayılmışdır və belə nəticədə şixtə tərkibində qrafitin kütlə faizi artması zamanı əl ilə qatışdırılmada tam hemogen sistemin alınmasının çətinləşməsi göstərir ki, çatışmazlıqlar spesfik vəziyyət üçün xüsusi qarışdırıcının hazırlanması lazım gəlir. Bu səbəblərdə xüsusi qarışdırıcılardan istifadə etdikdə şixtə qrafitin faizlə kütlə miqdarı 10%-dən 35%-ə kimi artması şixtə əsasında nümunələr hazırlamaq mexaniki xassələr müşahidə edilmişdir. Bərklik 70-100 MPa, sıxılmada möhkəmlik həddi $\delta_{sıx}$ 50MPa etmək olur.

Cədvəl-3

Komponentlərin dispersliyi, mkm		Kompozisiyada qrafitin miqdarı %	Texnoloji rejimlər		Sıxılmada möhkəmlik həddi	
F-4 markalı fotorplast	QK markalı qrafit	-	Preslənmə təzyiqi MPa	Tablandırma	Sınanan nümunələr	Sınanma nümunələr
1000	-	-	160	suda/sabada	-	50.0/50.0
1000	0,05-5,0	10/20	160/180	suda/sabada	25.0/15.0	-
50-150	0,05-5,0	10/20	160/180	suda/sabada	-	50.0/50.0
50	0,05-5,0	10/20	160/180	suda/sabada	25.5/-	-/50.0

Ftorplast – 4A və QK-1 qarışıq şəklində xırdalayıcıya və qarışdırıcıya daxil edildikdən sonra bu proses İMN – 500 markalı xırdalayıcıda aparılır və xırdalanan ftorplast toz halındakı QK-1 qrafitə qarışdırılaraq bircinsli şixtə materialı əmələ gətirilir.

Komponentlərin qarışdırılması əli ilə və həmçinin qarışdırıcılarda aparıldıqdan sonra preslənmə əməliyyatı aparılır və texniki xassələri göstərilir. Barabanın tutumu 3,5 m^3, barabanın fırlanma tezliyi san^{-1}, dövr/dəq 0,17 (10) mühərrik reduktorunun ötürmə həddi 16, 32, zəncir ötürmə ədədi 8,71, elektrik mühərrikinin növü 4A90R3TU16-52669586, qabarit ölçüləri, mm 3140x1880, hazır qarışıqlar P-125 markalı presə tökülüb, daha sonra məmul 160-180 MPa təzyiq altında sıxılaraq ölçüləri 55x10x10 olan prizmatik nümunələrin silindrik kipkəc materialların mümkünlüyünü göstərmək olar.

Ftorplast-4 əsasında müxtəlif dispers doldurucular əlavə etmək və alınan kompozisiya materiallarından neft mədən avadanlıqlarından kipkəc, nasos, siyitmə, kran, borular eləcə də elektronikada və radiotexnikada detallar hazırlamaq üçün tətbiq olunması tövsiyə edilir.

---

1. *Lumley R. and Morton A.* Nanoengineering of metallic materials. Nanostructure control of materials. P. 219-247, 2006. Kambridge England.
2. *Casey P.* Nanoparticle technologies and applications. Nanostructure control of materials. p. 1-31, 2006. Kambridge England.
3. *Гулиев Ф.Т., Мамедов А.Т.* Расчет тольшины и массы медного покрытия, осаждаемого на частицы чугунного порошка, Ученые записки, АзТУ, 2006, №1, с. 56-58.
4. *Батаев А.А., Батаев В.А.,* Композиционные материалы: строение, получение, применение, изд. Логос, 2006, 398 с.
5. *Мамедов А.Т.* Конструкционные и антифрикционные порошковые материалы, Баку, ЭЛМ, 2005, 458 с.
6. *Casey P.* Nanoparticle technologies and applications. Nanostructure control of materials. P. 1-31, 2006. Kambridge England.
7. *Chernov I.A., Deberdeev T.R Novikov G.F., Garipov R.M ., Irzhak V.I.* Dielectrical investigations of low temperature hardening of epoxide resin ED-20 Plast.Massy Plastics. 2003. №8 p.5 (In Russian).
8. *Rəhimova A.Ə.* Electrocinductive Polymer Compositions məqalə AMEA-nın Fizika İnstitutu Energetikanın problemləri Bakı, 2016.
9. *Rəhimova A.Ə., Məmmədov E.D.* Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri "Silindir oymaqlarının xarici səthinin kavitasiya-erroziya və korroziyadan qorunmasında polimer kompozisiyalarının materiallarının rolu" Bakı 2018 №1(27), s16-20.
10. *Rəhimova A.Ə.* Plastik kütlələr əsasında təyziq altında tökmə üsulu. məqalə AMEA-nın Fizika İnstitutu Energetikanın problemləri Bakı, 2017 №1.

ЗАВИСИМОСТЬ ИССЛЕДОВАНИЯ ТРИБОТЕХНИЧЕСКИХ СВОЙСТВ ФТОРПЛАСТОВЫХ КОМПОЗИЦИЙ ОТ ДИСПЕРСНОСТИ КОМПОНЕНТОВ

РАГИМОВА А.А., МАМЕДОВ Ч.М.

Статья посвящена исследованию механических свойств фторопластовых композиций, применяемых в узлах уплотнения. Установлено, что наиболее высокий предел прочности при сжатии композиций фторпласт-графита обеспечивается при дисперсности фторопласта 50-150 мкм и тщательном перемешивании компонентов.

Ключевые слова: фторпласт-4, наполнитель, дисперс, композиций, свойств, полимер.

DEPENDENCE OF MECHANICAL PROPERTIES OF FLUOROPLASTIC COMPOSITION ON THE DISPERSION OF THE COMPONENTS

RAGIMOVA A.A., MAMEDOV CH.M.

The article is devoted to the research of the mechanical properties of fluoroplastic compositions used in compaction units. It was established that the highest compressive strength of fluoroplast-graphite compositions is provided with a dispersion of fluoroplastic 50-150 microns and thorough mixing of the components.

Key words: fluoroplast-4, filler, disperse, composition, property, polymer.

PACS: 05.45.Xt, 05.45.Vx, 42.55.Px, 42.65.Sf

ƏKS-ƏLAQƏ RABİTƏSİNƏ MALİK SİSTEMLƏR ARASINDA XAOTİK RƏQSLƏRİN QABAQLAYICI SİNXRONLAŞMASI

NURİYEV R.A.

Azərbaycan MEA Fizika İnstitutu
AZ-1143, H. Cavid pr. 131, Bakı, Azərbaycan
e-mail: rus.nuriyev.74@mail.ru

Bu məqalədə bir əks-əlaqə rabitəsinə malik qeyri-xətti birtərəfli əlaqəli İkeda sistemləri arasında sinxronlaşma tədqiq olunacaq. Əsas diqqət İkeda sistemləri arasında parametr uyğunsuzluğunun sinxronlaşmaya təsirinin tədqiqinə ayrılıb.

Açar sözlər: sinxronlaşma, xaotik ossilyatorlar, ikeda sistemi, deterministik xaos.

GİRİŞ

İkeda modeli [1-2] qeyri-xətti dinamikada və xaos nəzəriyyəsində ən populyar modellərdən biridir.

İkeda modeli [3-4] ilk dəfə olaraq optik bistabil rezonatorda elektromaqnit dalğasının dinamikasını araşdırarkən meydana gəlmişdir.. İndi müəyyən olunub ki, İkeda sistemi əlavə olaraq bir çox fiziki proseslərin modelləşdirilməsində də adekvat ola bilər. Nümunə olaraq opto-elektronik sistemləri göstərmək olar. Bu sistemlərdə dinamik dəyişən sistemdəki modulyatora verilən gərginliyə mütənasibdir. Bu kontekstdə digər bir nümunə kimi akustik-optik sistemləri də xatırlamaq olar.

İkeda sistemləri arasında qabaqlayıcı sinxronlaşma.

Məqalənin bu hissəsində bir əks-əlaqə rabitəsinə malik İkeda sistemləri arasında qabaqlayıcı sinxronlaşma tədqiq olunacaq. İkeda sistemləri birtərəfli, qeyri-xətti gecikən əlaqə vasitəsi ilə sinxonlaşdırılacaq. Bu cür sinxronlaşma zamanı aparılan, idarə olunan sistem y aparıcı, idarə edən sistemin x gələcək vəziyyətinə sinxronlaşır. $y = x(t+\tau)$, burada τ zamandır. Başqa sözlə, aparılan sistemin dinamikası aparıcı sistemin dinamikasından əvvəl gəlir.

Fərz edək ki, həm aparıcı, həm də aparılan İkeda sistemləri bir əks-əlaqə rabitəsinə malikdirlər. Bundan başqa həm də fərz edək ki, İkeda sistemləri arasında əlaqə qeyri-xəttidir və müəyyən gecikmə ilə baş verir. Beləliklə:

aparıcı

$$\frac{dx}{dt} = -\alpha_1 x + m_1 \sin x_{\tau_1} \tag{1}$$

və aparılan

$$\frac{dy}{dt} = -\alpha_2 y + m_2 \sin y_{\tau_2} + m_3 \sin x_{\tau_3} \tag{2}$$

İkeda sistemləri arasında sinxronlaşmanı tədqiq edəcəyik.

Burada: x – lazer şüası aparıcı sistemin optik rezonatorunda yayılan zaman işığın elektrik sahəsinin fazasının dəyişməsidir; t – zamandır; α_1 – x sistemi üçün relaksasiya əmsalıdır; m_1 – aparıcı sistemin optik rezonatoruna injektə olunmuş lazer şuasının intensivliyidir; τ_1 – aparıcı sistem üçün əks-əlaqə rabitəsi zamanıdır: başqa sözlə,

optik rezonatorda işığın yayılma vaxtıdır; y – lazer şüası aparılan sistemin optik rezonatorunda yayılan zaman işığın elektrik sahəsinin fazasının dəyişməsidir; $\alpha_2 - y$ sistemi üçün relaksasiya əmsalıdır; m_2–aparılan sistemin optik rezonatoruna injektə olunmuş lazer şuasının intensivliyidir; τ_2– aparılan sistem üçün əks-əlaqə rabitəsi zamanıdır: m_3– aparıcı sistemin optik rezonatorunda lazer şüasının intensivliyinin aparılan sistemin optik rezonatoruna injektə olunmuş hissəsidir: başqa sözlə, m_3 aparıcı və aparılan sistemlər arasında əlaqə intensivliyidir; qeyd edək ki, sistemlər arasında əlaqə birtərəflidir; τ_3–lazer işığının aparıcı sistemdən aparılan sistemə yayılma zamanıdır.

İndi göstərək ki,

$$x = y_{\tau_1 - \tau_3} \tag{3}$$

rejimi İkeda sistemləri üçün sinxronlaşma həllidir. Bunun üçün əvvəlcə identik aparıcı və aparılan İkeda sistemlərini araşdıraq. Hesab edək ki,

$$\alpha_1 = \alpha_2, \ \tau_1 = \tau_2 . \tag{4}$$

Qeyd edək ki, sinxronlaşma rejimi (3) τ_1 və τ_3 arasında münasibətlərdən asılı olaraq qabaqlayıcı ($\tau_3 < \tau_1$), gecikən ($\tau_3 > \tau_1$) və tam, identik ($\tau_3 = \tau_1$) sinxronlaşma ola bilər. $x = y_{\tau_1 - \tau_3}$ -nin (1) və (2) İkeda sistemləri üçün sinxronlaşma rejimi olduğunu sübut etmək üçün sinxronlaşma xətasının

$$\Delta = x - y_{\tau_1 - \tau_3} \tag{5}$$

dinamikasını $m_1 = m_2 + m_3$ şərti daxilində (1) və (2) tənliklərindən asanlıqla əldə etmək olar: kiçik sinxronlaşma xətasının Δ dinamikası aşağıdakı kimi yazıla bilər:

$$\frac{d\Delta}{dt} = -\alpha\Delta + s\Delta_{\tau_1} . \tag{6}$$

Burada: $s = (m_1 - m_3)\cos x_{\tau_1}$.

Başqa sözlə, $\Delta = 0$ sinxronlaşma xətası tənliyinin (6) həllidir. Yəni $x = y_{\tau_1 - \tau_3}$ (1) və (2) İkeda sistemləri üçün sinxronlaşma rejimidir. $m_1 = m_2 + m_3$ sinxronlaşmanın mövcudluq şərtidir.

Praktiki cəhətdən müəyyən edilmiş sinxronlaşma rejiminin stabillik şərti böyük əhəmiyyətə malikdir, çünki mövcudluq şərti hələ bu rejimin praktikada müşahidə edilməsi və beləliklə tətbiq edilə bilməsi anlamına gəlmir. Tapılmış həll həm də dayanıqlı olmalıdır. Ona görə bu mərhələdə sinxronlaşma rejiminin stabillik şərtləri tədqiq ediləcək.

İkeda sistemləri arasında sinxronlaşma rejimlərinin stabillik şərti.

Sinxronlaşma xətası üçün tənlik zamana görə gecikən diferensial tənlik vasitəsi ilə təsvir olunub. Bu cür sistemlər funksional tənliklər adlanır. Stabillik şərtini tapmaq üçün haldan Lyapunov-Krasovski funksional yanaşmasından [5-7] istifadə ediləcək. Sinxronizasiya rejiminin $x = y_{\tau_1 - \tau_3}$ mövcudluq şərtini $m_1 = m_2 + m_3$ də nəzərə alsaq, onda stabillik şərtinin

$$\alpha > |m_2| \tag{7}$$

olması nəticəsinə gəlirik. Sinxronlaşmanın keyfiyyətini korrelyasiya funksiyası C ilə xarakterizə olunur [8].

Kompüter modelləşdirilməsinin nəticələri.

Məqalədə istifadə olunan kompüter modelləşdirilməsi əsasən Matlab 7 proqram paketindən istifadə etməklə həyata keçirilib.

Aparıcı İkeda sistemi (1) parametrlərin aşağıdakı qiymətlərində xaotik dinamika nümayış etdirir: $\alpha = 2$, $m_1 = 10$, $\tau_1 = 5{,}5$. Şək.1-də aparıcı və aparılan İkeda sistemlərinin dinamikası əks olunub. Kompüter modelləşdirilməsi zamanı istifadə olunan digər parametrlərin qiyməti belədir (1-2): $\tau_2 = 5{,}5$, $\tau_3 = 0{,}5$, $m_2 = 0{,}2$, $m_3 = 9{,}8$. Parametrlərin qiymətləri elə seçilib ki , həm mövcudluq ($m_1 = m_2 + m_3$ və $\tau_1 = \tau_2$), həm də kafi stabillik



Şək.1. İkeda sistemləri arasında qabaqlayıcı sinxronlaşma: müəyyən keçid proseslərindən sonra aparılan sistem $y(t)$ aparıcı sistemin $x(t)$ gələcək vəziyyətinə sinxronlaşır. Aparıcı və aparılan sistemlər arasında zaman sürüşməsi 5 vahiddir.

($\alpha > |m_2|$) şərtləri ödənilir. Bundan əlavə, Şək.1-dəki dinamika üçün $\tau_1 > \tau_3$ olduğundan bu hal qabaqlayıcı sinxronlaşmaya uyğun gəlir: müəyyən keçid proseslərindən sonra aparılan sistem $y(t)$ (2) aparıcı sistemin $x(t)$ (1) gələcək vəziyyətinə sinxronlaşır. Aparıcı və aparılan sistemlər arasında zaman sürüşməsi $\Delta t = \tau_1 - \tau_3 = 5$ vahiddir. Şək.1-də nümayiş etdirilən qabaqlayıcı sinxronlaşma üçün korrelyasiya əmsalı $C = 1$. Bu o deməkdir ki, $y_{\tau_1 - \tau_3}$ və x arasında yüksək keyfiyyətli sinxronlaşma mövcuddur.

$\tau_1 < \tau_3$ şərti ödənilərsə gecikən sinxronlaşma həyata keçir. Bu zaman aparılan sistem aparıcı sistemdən geri qalır, başqa sözlə aparılan sistem aparıcı sistemdən sonra gəlir.

Şək. 2-də aparıcı $x(t)$ və aparılan $y(t)$ sistemlərin dinamikası parametrlərin bu hala uyğun gələn qiymətlərində $\alpha = 1$, $m_1 = 6$, $\tau_1 = 3$, $\tau_2 = 3$, $\tau_3 = 7$, $m_2 = 0{,}3$, $m_3 = 5{,}7$ təsvir olunub. Parametrlərin qiymətlərindən göründüyü kimi $x_{\tau_3 - \tau_1} = y$ gecikən sinxronlaşma rejimi üçün həm mövcudluq, həm də kafi stabillik şərtləri ödənilir. Aparıcı $x(t)$ və aparılan $y(t)$ sistemlərin dinamikasından görünür ki, aparılan sistem $\tau_3 - \tau_1 = 4$ zaman vahidi gecikmə ilə keçici proseslərdən sonra aparıcı sistemin dinamikasını təkrarlayır. Dinamik dəyişənlər arasında korrelyasiya maksimal həddədir: $C = 1$.



Şək. 2. İkeda sistemləri arasında gecikən sinxronlaşma rejimi.

Qeyd edək ki, gecikən və ya başqa sinxronlaşma növləri üçün mövcudluq və stabillik şərtləri ödənilmədikdə, sinxronlaşmanın keyfiyyəti çox aşağı olur.

Tətbiqi baxımdan çox mühümdür ki, sinxronlaşan sistemlər arasında parametr fərqliliyinin sinxronlaşmanın keyfiyyətinə təsiri araşdırılsın. Real həyatda iki identik sistem arasında belə müəyyən parametrlərin uyğunsuzluğu qaçılmazdır. Xaos əsasında informasiya mübadiləsi sistemlərində informasiyanın deşifrə olunması sinxronlaşmanın keyfiyyətindən birbaşa asılıdır. Bu faktorları nəzərə alaraq parametr uyğunsuzluğunun sinxronlaşmanın keyfiyyətinə təsirini araşdıracağıq.

Əvvəlcə aparıcı $x(t)$ (1) və aparılan $y(t)$ (2) dinamik sistemlər arasında əks-əlaqə rabitəsi zamanın müxtəlifliyini fərz edək. Əvvəlki hissədə bu sistemlər arasında sinxronlaşmanı tədqiq edərkən qəbul etmişdik ki aparıcı sistemdə əks-əlaqə rabitəsi zamanı τ_1 və aparılan sistemdə əks-əlaqə rabitəsi zamanı τ_2 arasında $\tau_1 = \tau_2$ bərabərliyi yerinə yetirilir. İndi fərz edək ki $\tau_1 \neq \tau_2$ və qəbul edək ki $\tau_2 \equiv \tau_1^*$. Kompüter modelləşdirilməsi zamanı qabaqlayıcı sinxronlaşma halında (şək.1) aparıcı $x(t)$ və aparılan $y(t)$ İkeda sistemləri arasında C korrelyasiya əmsalının $\tau_1^* \tau^{-1}$ münasibətindən asılılığı öyrənilib. Nəticələr şəkil 3-də nümayiş etdirilib. Nəticələrdən aydın olur ki, hətta əks-əlaqə rabitəsi zamanları arasında 10%-lik fərq sinxronlaşmanın keyfiyyətinə əhəmiyyətli təsir göstərmir. Belə ki, bu fərq yalnız korrelyasiya əmsalının 1-dən 0.99-a düşməsinə gətirib çıxardır. Analoji tendensiya həm də gecikən və tam sinxronlaşma rejimləri üçün müşahidə olunmuşdur.



Şək.3. Qabaqlayıcı sinxronlaşma şəraitində korrelyasiya funksiyasının (əmsalının) əks-əlaqə zamanın fərqliliyindən asılılığı.

İndi isə aparıcı $x(t)$ (1) və aparılan $y(t)$ (2) İkeda sistemləri arasında relaksasiya əmsallarının müxtəlifliyinin sinxtonlaşan sistemlər arasında C korrelyasiya əmsalına təsirini araşdıraq. Bu məqsədlə şək. 4-də C korrelyasiya əmsalının $\alpha_1^* \alpha_1^{-1}$ münasibətindən asılılığı göstərilib. Xatırladaq ki, burada α_1 aparıcı İkeda sistemi üçün relaksasiya əmsalıdır; α_1^* isə aparılan İkeda sistemi üçün relaksasiya əmsalıdır. Kompüter modelləşdirilməsinin nəticələrindən aydın görünür ki, relaksasiya əmsallarında hətta 20%-lik fərq sinxronlaşma keyfiyyətinə əhəmiyyətli təsir göstərmir. Qeyd edək ki, belə dözümlülük bir çox tətbiq sahələrində, məsələn xaos əsasında informasiya emalı sahəsində təqdir olana biləsi bir hadisədir.

Nəhayət sinxronlaşan sistemlər arasında C korrelyasiya əmsalının sinxronlaşma üçün vacib olan mövcudluq şərtinin yerinə yetirilməməsi nəticəsində dəyişməsini araşdıraq.



Şək.4. Qabaqlayıcı sinxronlaşma şəraitində İkeda sistemləri arasında korrelyasiya əmsalının relaksasiya əmsallarının fərqliliyindən asılılığı.

Müəyyən etdik ki, $m_1 = m_2 + m_3$ şərti sinxronlaşma üçün mövcudluq şərtidir və bu şərt daxilində sinxronlaşma rejimlərinin kafi stabillik şərtini tapdıq. İndi fərz edək ki, aparıcı sistemin əks-əlaqə rabitəsinin intensivliyi m_1, aparılan sistemin əks-əlaqə rabitəsinin intensivliyi m_2 və bu sistemlər arasında əlaqə intensivliyi üçün $m_1 \neq m_2 + m_3$ münasibəti yer alır. Kompüter modelləşdirilməsinin nəticəsi göstərir ki, C korrelyasiya əmsalının $\dfrac{m_1}{m_2 + m_3}$ münasibətindən asılılığı kifayət qədər zəifdir. Şək.5-dən aydın olur ki, hətta 20%-lik parametr uyğunsuzluğu bu halda korrelyasiya əmsalının 1-dən yalnız 0.9-a düşməsinə gətirir ki, bu da sinxronlaşmanın parametr fərqliliyinə çox davamlı (robust) reaksiyaya malik olduğuna dəlalət edir. Qeyd edək ki, şək.3-5-də qabaqlayıcı sinxronlaşmaya aid halda parametr uyğunsuzluğu araşdırılıb. Gecikən və tam sinxronlaşma rejimləri üçün də eyni tendensiya müşahidə olunur. Parametr fərqliliyinin sinxronlaşmanın keyfiyyətinə təsirinin kompüter modelləşdirilməsinin nəticələri onu göstərir ki, bu halda sinxronlaşma keyfiyyəti azacıq da olsa pisləşir. Amma bu baxmayaraq yenə də sinxronlaşma əmsalı kifayət qədər yüksəkdir. Araşdırdığımız hal parametr uyğunsuzluğunun sinxronlaşmaya təsirinin yalnız bir aspektidir.



Şək. 5. Qabaqlayıcı sinxronlaşma şəraitində İkeda sistemləri arasında korrelyasiya əmsalının sinxronlaşmanın mövcudluq şəraitin pozulduğu halından asılılığı.

NƏTİCƏ

Bu məqalədə bir əks-əlaqə rabitəsinə malik İkeda sistemləri arasında birtərəfli qeyri-xətti əlaqə şəraitində qabaqlayıcı sinxronlaşma tədqiq olundu. Bu zaman əsas diqqət sinxronlaşan İkeda sistemləri arasında paramert uyğunsuzluğunun sınxronlaşmanın keyfiyyətinə təsirinin müəyyən olunmasınna yönəlmişdir. Məqalədə qabaqlayıcı sinxronlaşmanın mövcudluq və stabillik şərtləri müəyyən edilmışdir.

Alınmış nəticələrin tətbiq sahələrinə gəlincə qeyd etməliyik ki, ötürücü və qəbuledici lazer sistemləri arasında sinxronlaşma ötürülən informasiyanın emalı, o cümlədən deşifrə olunması və qorunması üçün çox vacib əhəmiyyətə malikdir. Bundan əlavə koherent lazer mənbələrinin sinxronlaşması kompakt və güclü lazer sistemlərinin yaranmasında əhəmiyyətli rol oynaya bilər.

Qabaqlayıcı sinxronlaşmanın daha konkret tətbiq sahələrinə gəlincə isə qeyd etmək lazımdır ki, belə sinxronlaşma çox sürətli proqnoz məsələlərində istifadə oluna bilər, çünki bu zaman kifayətdir ki, aparıcı sistemə identik aparılan sistem qoşasan. Bu xassə qeyri-zədəsiz diaqnostika problemlərində, canlı aləmdə informasiya emalı zamanı və sair istifadə oluna bilər. Nəhayət, xaos əsasında informasiya emalı sistemlərində qabaqlayıcı sinxronlaşma icazəsi olmayan üçüncü tərəfə ötürülən informasiyanın deşifrəsi üçün əlavə vaxt verə bilər.

---

1. *İkeda K., Daido H., Akimoto O.* Optical turbulence: chaotic behavior of transmitted light from a ring cavity // Physical Review Letters, 1980, v. 45, No 9, pp.709-712.
2. *Valli D., Muthuswamy B., Banerjee S.* et. al. Synchronization in coupled Ikeda delay systems //The European Physical Journal Special Topics, 2014, v. 223, No 8, pp. 1465-1479.
3. *İkeda K., Daido H., Akimoto O.* Optical turbulence: chaotic behavior of transmitted light from a ring cavity // Physical Review Letters, 1980, v. 45, No 9, pp.709-712.
4. *Valli D., Muthuswamy B., Banerjee S.* et. al. Synchronization in coupled Ikeda delay systems //The European Physical Journal Special Topics, 2014, v. 223, No 8, pp. 1465-1479.
5. *Sun J., Chen J.* A survey of Lyapunov-based methods for stability of linear time-delay

systems // Frontiers of Computer Science, 2017, v. 11, No 4, pp.555-567.
6. *Zhang B., Kruszewski A., Richard J.*-P. A novel control design for delayed teleoperation based on delay-scheduled Lyapunov-Krasovskii functionals // International Journal of Control, 2014, v. 87, No 8, 1694-1706.
7. *Zhang C.-K., He Y., Jiang L.* et al. Notes on stability of time-delay systems: bounding inequalities and augmented Lyapunov-Krasovskii finctionals // IEEE Transactions on Automatic Control, 2017, v. 62, No 10, pp.5331-5336.
8. *Haykin S.* Communication systems. Wiley, New York, 1994, 816 p.

ОПЕРЕЖАЮЩАЯ СИНХРОНИЗАЦИЯ ХАОТИЧЕСКИХ КОЛЕБАНИЙ МЕЖДУ СИСТЕМАМИ С ОБРАТНОЙ СВЯЗЬЮ

НУРИЕВ Р.А.

Настоящая статья посвящена опережающей синхронизации между нелинейными системами Икеды с обратной связью. Основное внимание уделено влиянию несоответствия параметров между системами Икеды на качество синхронизационных режимов.

Ключевые слова: синхронизация, хаотические осцилляторы, система Икеды, детерминированный хаос.

ANTICIPATING SYNCHRONIZATION BETWEEN FEEDBACK CHAOTIC SYSTEMS

NURIYEV R.A.

In this paper our goal is to investigate synchronization regimes between Ikeda models with feedback. Ikeda systems are connected unilterally. Main attention is given to the effect of parameter mismatches on synchronization quality.

Keywords: synchronization, chaotic oscillators, Ikeda system, deterministic chaos.

UOT: 77.84. Lf

POLİMER-ÇOXKOMPONENTLİ PYEZOFAZAYA MALİK KOMPOZİTLƏRDƏ PYEZO-, PİROELEKTRİK EFFEKTLƏRİN FORMALAŞMASINDA İSTİLİK EFFEKTLƏRİ

DADAŞOV Z.A.

Azərbaycan MEA-nın Fizika İnstitutu

Məqalədə polimer-çoxkomponentli pyezofazaya malik kompozitlərdə pyezo-, piroelektrik effektlərin formalaşmasında relaksasiya xarakterli istilik effektləri öyrənilmiş və mümkün nəticələri müəyyən edilmişdir. Göstərilmişdir ki, kompozitlərdə istilik effektləri komponentlərin modifikasiyası və elektrik qaz boşalması plazmasının təsiri şəraitində baş verir.

Açar sözləri: kompozit, piroelektrik, modifikasiya, elektrotermoplazmatik kristallaşma, şüşüləşmə, endo və ekzotermik proseslər.

Məlumdur ki, elektronikada, radiotexnikada və elektroenergetikada istifadə olunan bütün növ çeviricilər istilik təsirlərinə məruz qalır. Ona görə də, növündən və yerinə yetirdiyi funksiyadan asılı olmayaraq iş prinsipi istilik effektləri əsasında olan bütün çeviricilərin texnologiyası, modifikasiya üsulları yenidən işlənməlidir. İstismar intervalları faza keçidləri temperaturlarına yaxın olan çeviricilərin istismarı xüsusi əhəmiyyət kəsb edir. Kompozitlərin istilik fiziki xassələrin kompleks şəkildə öyrənilməsi məsələn, bir aktiv elementdə bir neçə xassələrin öyrənilməsi, hansılar ki, alınma texnologiyaları bir- birini tamamlayırlar, onda müəyyən qədər hesab etmək olar ki, elektret, pyezo və piroelektriklər göstərilən effektlərin öyrənilmə səviyyəsi və texnologiyaları yüksəlir[1,2].

Təqdim olunan işdə polimer-çoxkomponentli pyezofazaya malik kompozitlərdə pyezo-, piroelektrik effektlərin formalaşmasında relaksasiya xarakterli istilik effektləri öyrənilmiş və mümkün nəticələr müəyyən edilmişdir. Tədqiqat nümunələrinin alınması isti presləmə metodu ilə aparılmışdır. Nümunənin preslənmə temperaturu polimer matrisanın ərimə temperaturuna yaxın və ya bərabər götürülmüşdür. Eksperimental nəticələr sabit E_p, sabit temperatur (T_p) və polyarlaşma müddətində alınmışdır. Pyezofazanın həcmi payı 60% və pyezohissəciklərin ölçüləri (63-100) mkm götürülmüşdür. Diaqnostik (TSD) və modifikasiya (plazma kristallaşması) elektrotermopolyarlaşma prosesləri vasitəsilə kompozitlərdə bilavasitə formalaşan pyezo və piroelektrik effektlərin mexanizmlərinin daha geniş öyrənilməsi üçün perspektivli üsuludur. Bu məqsədlə aşağıdakı tədqiqat üsullarını tətbiq edirik: TSD, DSK, DTA, istilikfiziki və rentgen struktur analiz. Şəkil 1. a,b,c-də kompozitlərin piroelektrik cərəyanının temperaturdan asılılığı verilmişdir. Göründüyü kimi bu asılılıq çox mürəkkəbdir və piroelektrik effektin formalaşma mexanizmi haqqında daha çox informasiya verir.

Şəkil 1-də verilmiş eksperimental nəticələrin analizi göstərir ki, tədqiq etdiyimiz kompozitlərin pyezofazasının strukturu öyrəndiyimiz kompozitlərdə piroelektrik effektinin formalaşmasına kəskin təsir edən faktordur. Ona görə də, kompozitlərin digər fazasının rolunu aydınlaşdırmaq da mühüm məsələ kimi plana çıxır. Şəkil 2 a,b,c –də verilmiş nəticələrin analizi göstərir ki, polyar polimer matrisalı (F-23) kompozitlərin piroelektrik xassələri daha yüksəkdir [1]. Tədqiqatların növbəti mərhələsində polimer-çoxkomponentli kompozitlərdə komponentlərin, xüsusilə, polimer matrisanın, heterogenliyini dəyişdirmək üçün təklif etdiyimiz texnologiyalardan ən effektlisi elektrik qaz boşalması plazmasının və temperaturun birgə təsiri şəraitində kompozitlərin kristallaşmasıdır [2,3]. Bu texnologiyanın əsasında kompozitin ərimə temperaturundan başlayaraq elektromənfi qazlarda, məsələn,

havada yüksək gərginliyin təsirindən yaranan elektrik boşalması plazmasının təsiri şəraitində kristallaşması (elektrotermoplazmatik kristallaşma) durur.



a)



b)



c)

Şək. 1. a,b,c. Kompozitlərin piroelektrik cərəyanlarının temperaturdan asılılıqları.
a-YSPE+$PbTiO_3$-$PbZrO_3$-$PbNb_{2/3}Zn_{1/3}O_3$-$PbNb_{2/3}Mg_{1/3}O_3$;
b-YSPE+$PbTiO_3$-$PbZrO_3$-$PbNb_{2/3}Mn_{1/3}O$;
c-YSPE+ $PbTiO_3$-$PbZrO_3$.



Şək. 2. F-23+$PbTiO_3$-$PbZrO_3$-$PbNb_{2/3}Zn_{1/3}O_3$- $PbNb_{2/3}Mg_{1/3}O_3$ kompozitin J=f(T) asılılığı.

Kristallaşma prosesi axıra qədər elektrik qaz boşalması plazmasının təsiri altında gedir. Temperaturun dəyişməsi isə pillə -pillə aparılır: prosesin əvvəlində 0,25-0,5 saat ərzində 10-30 K, sonra isə 0,25-2K/dəqiqə sürətlə kompozit polyarlaşma temperaturuna (373K) və ya da otaq temperaturuna kimi soyudulur. Kompozitin strukturunun dəyişməsi onun polimer matrisanın İQ-spektrlərinə əsasən müəyyən edilmişdir. Şəkil3-dəYSPE+$PbTiO_3$-$PbZrO_3$-$PbNb_{2/3}Zn_{1/3}O_3$-$PbNb_{2/3}Mg_{1/3}O_3$ kompozitinin polimer matrisanın İQ-spektrində elektrotermoplazmatik kristallaşmadan sonra yaranan yeni qrupların kristallaşma müddətindən asılılığı verilmişdir. Alınan eksperimental nəticə göstərir ki, YSPE makromolekullu qısa bir müddətdə intensiv oksidləşir, yəni makromolekulda oksidləşmə mərkəzləri yaranır və qeyri polyarlılığını itirir. Yaranan əsas qruplar (C=0,C-O-C,OP) güclü qruplardır. Polimer zəncirində yaranan belə polyar qruplar onun kimyəvi strukturnun heterogenliyinə səbəb olur. Yaranan qruplar dipol momentinə malik olduğu üçün polimerin kvaziqadağan zonasında bunlara uyğun lokal səviyyələr elektroaktivdirlər. YSPE-nin kristallaşma prosesində qeyri polyarlığı pozulduğu üçün fazalararası qarşılıqlı təsirlər artacaq və bu effekt, heç şübhəsiz ki, fazalararası sərhəddə polimer matrisanın strukturunun formalaşmasına təsir edəcəkdir. Polimerin ifrat strukturu (molekulyarüstü quruluşu)



Şək. 3. YSPE+$PbTiO_3$- $PbZrO_3$-$PbNb_{2/3}Zn_{1/3}O_3$-$PbNb_{2/3}Mg_{1/3}O_3$ kompozitinin İQ spektrində elektrotermoplazmatik kristallaşmadan sonra yaranan qrupların kristallaşma müddətindən asılılığı.

seqnetopyezokeramika hissəciklərinin səthinin təsiri altında formalaşacaq və son nəticədə fazalararsı sərhəddə makromolekulların yürüklüyü azalacaqdır.

Termiki işləmənin polimerə təsirini öyrənmək üçün diferensial skan kalorimetriya (DSK) əyrilərindən istifadə edirik. DSK polimer və onlar əsasında kompozitlərin qızdırılması zamanı onlarda baş verən dəyişilikləri, şüşələşməni, kristallaşmanı və əriməni öyrənməyə imkan verən bir metoddur. Bu metodda biz material tərəfindən udulan və ya ayrılan istiliyin temperatur asılılığını müəyyən edirik. Bu məqsədlə şəkil 4-də ilkin YSPE üçün DSK əyriləri verilmişdir. Alınan nəticələr göstərir ki, DSK əyrisi 124^0C-də maksimuma malikdir. Əgər YSPE –ni bir tsikl qızma və soyutmaya məruz etsək və DSK əyrisini alsaq, tam qrafikdə (yəni soyutma- qızma) yaranan yeni maksimum 111^0C-yə uyğundur. İlk baxışdan alınan nəticə anomal xarakterlidir: Belə ki, termoişləmənin təsirindən polimerdə oksigenli destruksiya prosesləri baş verir və daha kiçik temperaturlarda özünü göstərir.



Şək. 4. İlkin YSPE üçün DSK spektrləri.

DSK-nı tətbiq etməklə polimerlərin praktikada tətbiqi üçün mühüm parametr olan şüşələşmə temperaturunu da kəmiyyət baxımından təyin edirik: YSPE üçün bu parametr 120-134^0C intervalında dəyişir. İndi də diferensial skan kalorimetriya (DSK) vasitəsilə kompozitlərdə istiliyin təsirindən gedən struktur dəyişiliklərinə baxaq. Şəkil 4.25-də YSPE+PKR1 kompoziti DSK əyriləri verilmişdir Kompozitin DSK spektrlərində təpə nöqtəsi aşağı yönəlmiş maksimum əriməyə malik olub endotermik prosesi, təpə nöqtəsi aşağı yönəlmiş maksimum isə soyuma zamanı kristallaşmaya uyğun olub ekzotermik prosesi əks etdirir. Qrafikdən görünür ki, YSPE+PKR1 kompoziti üçün birinci pikin qiyməti 128^0C, ikinci pikin qiyməti 480^0C-də alınmışdır.



Şək. 5. YSPE+ PKR1 kompoziti üçün DSK spektri.

DSK əyrilərində müşahidə olunan maksimumlar yüksək elektrik sahəsinin, temperaturun və elektrik qaz boşalması plazmasının təsirindən polimer fazada və fazalararası sərhəddə gedən proseslərlə əlaqədardır:

- Strukturun dəyişməsi;
- fazalararası qarşılıqlı təsir;
- fazalararası qarşılıqlı təsir artdıqca kristallik dərəcəsi azalır, həmçinin makromolekullar özlərinin sərbəstliyini müəyyən qədər itirirlər;
- elektrotermopolyarlaşma prosesi pyezohissəciklərin təsiri şəraitində getdiyi üçün ümumiyyətlə kompozitin amorfluğu azalır.

Ona görə də, termoaktivləşmə proseslərində məsələn TSD, DSK, DTA spektrlərində yeni maksimumlar müşahidə olunur və həm də maksimumlar yüksək temperatur istiqamətində sürüşürlər. Elektrofiziki faktorlardan başqa DSK spektrləri vasitəsilə istilik tutumu (c_p) da geniş öyrənilmişdir. İstiliyin və ya da elektrik təbiətli xarici faktorların təsirindən kompozitlərdə reoriyentasiya prosesləri gedir və kvazistabil kristallar formlaşır. Kristalların reoriyentasiya ilə baş verən ərimə temperaturu yuxarıda göstərilən spektrlərdə kiçik temperatur maksimumu kimi müşahidə olunur [4-6]. Amma oriyentasiyaya məruz qalmış kompozitlərin ərimə temperaturu yuxarıda göstərilmiş DSK əyrilərində yüksək temperatur istiqamətində yerini dəyişir. Çox növlü ərimələr və ya da ərimələrin çox növlülüyü fazaların müxtəlifliyi də DSK əyrilərində təbiəti məlum olmayan kiçik maksimumlar şəklində müşahidə olunur.

Şəkil 6-da PP+PKR12 kompoziti üçün DTA spektri verilmişdir. Burada ilk növbədə polimer ilə pyezofazanın qarşılıqlı təsiri haqqında informasiya verən kütlə itkisi (Δm), temperatur fərqi (ΔT) və piklərin temperaturu müəyyən edək



Şək. 6. PP+PKR12 kompoziti üçün DTA spektri.

Şəkildən görünür ki, ən kiçik kütlə itkisinə məruz qalan kompozitlər romboedrik strukturludur. Tetraqonal struktura malik kompozitlərdə isə bu göstərici nisbətən (məsələn, PKR3M fazalı kompozitlərə nəzərən) böyükdür. Bu kifayət qədər maraqlı və çətin mexanizmə malik effekti fazalararası qarşılıqlı təsiri nəzərə almaqla izah etmək olar. Hesab edirik ki, fazalararası qarşılıqlı təsir və ya da fazaların elektromənfiliyi artdıqca kütlə itkisi (Δm) azalacaqdır. Polimer – seqnetopyezokeramika kompozitlərdə fazalarası qarşılıqlı təsir ancaq elektromənfiliklə deyil, həm də fazaların fiziki və kimyəvi quruluşlarından (domenlər, kvazikristallitlər) asılıdır

NƏTİCƏ

1. İlk dəfə yüksək polyarlığa malik polimer matrisalı (F-23, F-26) və çoxkomponentli qeyri-üzvi fazalı kompozitlərdə relaksasiya və termiki hadisələrin effektiv variasiya üsulları işlənmişdir;
2. Elektrik qaz boşalması plazmasının birgə təsiri şəraitində kompozitin fazalararası sərhəddinə injeksiya olunmuş elektrik yükdaşıyıcıların relaksasiyası pyezofazada domenlərin deoriyentasiya ilə nəticələnir;
3. polimer- çoxkomponentli kompozitlərdə polimer fazanın kvaziqadağan zonasındakı aktivləşmə enerjisi yüksək olan lokal səviyyələrdə stabilləşmiş elektrikyükdaşıyıcıların

relaksasiya temperaturu kompozitlərin pyezofazadakı domenlərin relaksasiya temperaturu ilə təyin olunmuşdur.

---

1. *Курбанов М.А.,Гусейнова Г.Х., Дадашов З.А., Фараджзаде И.А., Рамазанова И.С., Юсифова У.В., Худаяров Б.Г.* Пироэлектрический эффект в гетерогенной системе полимер-сегнетопьезоэлектрик. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, fizika –nexnika və riyaziyyat elmləri seriyası, fizika və astrononomiya,2016,XXXVI, №2, c. 66 – 72.
2. *Курбанов М.А., Рамазанова И.С., Дадашов З.А., Мамедов Ф.И., Гусейнова Г.Х., Юсифова И.В., Татардар Ф.Н., Фараджзаде И.А.* Релаксационные, термические и межфазные эффекты в композитах полимер-сегнетопьезокерамика различный структуры. ФТП 2019, том 53, вып. 8.
3. *Егоров В.М., Якушев П.Н.* Фазовые и релаксационные переходы в политетрафторэтилене ФТТ 2018, вып. 9, стр 1824.
4. *Kurbanov M.A., Khudayarov B.H., Ramazanova İ.S., Huseynova G.Kh., Nuraliev A.F., Dadashov Z.A., Aliyev O.A.*, Peculıarities of forming the piezoelectric effect in the composite of polymer- seqnetopesoseramicss the 6th İnternational conference on Control and Optimization with İndustrial Application. 11-13 July 2018. Baku Azerbaijan.
5. *Shakhtakhtinsky M.G., Musaeva S.N., Faradzhade I.A.* Relationship between piezoelectric, thermal properties and interphase phenomena in polymer – piezoelectric composites. AMEA Fİ, Fizika, 2000, c.4, №4, 33–36 s.
6. *Kurbanov M.A, Bayramov A.A., Tatardar F.N, Yahyayev F.F, Nuraliyev A.A., Dadashev Z.A, Khudayarov B.Kh.* Ultradisperse state of polymer phase as stabilizer nanosized $BaTiO_3$ and polar and nonpolar polymer composites.Fizika, vol. XX, №1, Section:En., April, 2014, pp. 55-59.

ТЕРМИЧЕСКОЕ ВЛИЯНИЕ НА ФОРМИРОВАНИЕ ПЬЕЗОЭЛЕКТРИЧЕСКИХ, ПИРОЭЛЕКТРИЧЕСКИХ ЭФФЕКТОВ В КОМПОЗИТАХ С МНОГОКОМПОНЕНТНОЙ ПОЛИМЕРНОЙ - ПЬЕЗОФАЗОЙ

ДАДАШОВ З.А.

В данной статье изучений роль релаксационный и тепловых процессов в формировании пьезо-пироэлектрические эффектов на полимер-пирокерамических композитах. Показано что, тепловые эффекты в композитах, возникают при модификации компонентов и воздействии плазмы на газовый разряда.

Ключевые слова: композит, пироэлектрический, модификация, электротермическая кристаллизация, стеклование, ендо и екзотермический процесс.

THERMAL INFLUENCE ON THE FORMATION OF PIEZOELECTRIC, PYROELECTRIC EFFECTS IN COMPOSITES WITH A MULTICOMPONENT POLYMER PIEZOPHASE

DADASHOV Z.A.

In this research article, the role of relaxation and thermal processes in the formed pyroelectric effect in polymer- pyroceramic composites. It has been shown that, the thermal effects in the composites occur under the modification of the components and the effect of the plasma of the electric gas discharges.

Keywords: composites, pyroelectric, modification, electrothermoplasmic crystallization, glass transition, endo and exothermic process.

PACS 546.21; 538.935

POLİETİLEN $|C_4H_8|_{1-x}(GaIn_3S_6)_x$ ƏSASLI NANOÖLÇÜLÜ KOMPOZİTLƏRDƏ TEZLİKDƏN ASILI BƏZİ PARAMETRLƏRİN TƏYİNİ

İBRAHİMOVA S.İ.

Azərbaycan MEA akademik H.M. Abdullayev adına Fizika İnstitutu,
Az-1143, Bakı, H.Cavid prospekti, 131
e-mail: seva-ahmed@mail.ru

$|C_4H_8|$-$GaIn_3Se_6$ əsasında tərkibləri 85%-15%, 70%-30% və 60%-40% uyğun olan nanoölçülü kompozit nümunələr hazırlanmışdır. Hazırlanan nümunələrdə elektrik keçiriciliyi (σ), dielektrik nüfuzluğu (ε), dielektrik itkisi (D) ölçülmüşdür.

Açar sözlər: sintez, polietilen, yarımkeçirici, quruluş, kompozit, nazik təbəqə, tezlik.

Məlumdur ki, kompozit materiallar iki hissədən, disperqatordan və onları özlərində saxlayan matrisadan ibarətdirlər və bu hissələrin kompozitdəki tərkiblərin çəki faizləri əvvəlcədən hesablanır. Ərintilərdən fərqli olaraq kompozit materiallarda tərkibə daxil olan fazalar ayrı-ayrılıqda öz xassələrini stabil halda saxlayırlar. Buna baxmayaraq, kompozitlərdə müşahidə edilən müxtəlif növ effektlərin yaranması əsasən onları təşkil edən hissələr, yəni fazalararası sərhədlər olan potensial çəpərin formalaşması ilə əlaqədardır. Öz növbəsində, kompozitlərdə müxtəlif xassələrin meydana gəlməsi fazalararası sərhəddə yaranan potensial çəpərin parametrləri ayrı-ayrı fazaların quruluşundan, elektrofiziki parametrlərindən və polimerdoldurucu sərhəddində baş verən proseslərdən çox asılıdır. Onuda qeyd edək ki, bircinsli olmayan kompozit materiallarda yükdaşınma prosesini tədqiq edən zaman materialın dielektrik parametrlərinin dispersiyası (dielektrik itkisi, dielektrik nüfuzluğu və.s) mühüm əhəmiyyət kəsb edir. Dielektrik nüfuzluğunun və dielektrik itkisinin tezlikdən asılılığı, matrisa ilə dispersiya fazasının elektrofiziki parametrləri arasındakı münasibətdən, həmçinin onların xarici elektrik sahəsindəki oriyentasiyasından asılıdır. Fizikanın, kimyanın və digər müxtəlif elm sahələrində aparılan xeyli tədqiqat işlərinin aparılmasına baxmayaraq [1-6] heterogen mühitlərdə dielektrik nüfuzluğunun tədqiqində müəyyən çətinliklər də var. Birincisi, çoxkomponentli sistemlərin effektiv parametrlərinin hesablanması riyazi nöqteyi nəzərdən çox çətindir və yalnız müəyyən hallarda hesablama aparmaq mümkün olur. Ikincisi, çoxkomponentli materialları tədqiq edən zaman dəyişən elektrik sahəsində qeyri-bircins sistemlərin xassəsini əks etdirən parametrlərin sayı artır. Həmçinin kompozitin həndəsi quruluşunu, elektrik keçiriciliyini və dielektrik xassələrini müəyyənləşdirən parametrlərdən başqa, tezlikdən və zamandan asılı olan parametrlər meydana çıxır.

Bunu nəzərə alaraq bu işdə yeni tərkibli və kristallik quruluşa malik $GaIn_3Se_6$ ilə PE (polietilen) əsasında nano ölçülü kompozitdən ibarət nazik təbəqələrin alınması və onlarda tezliyin təsiri ilə baş verən xassə dəyişikliklərinin tədqiqi şərh edilmişdir. Bunun üçün $GaIn_3Se_6$ kristalları sintez edilmiş, 10 gün ərzində 550^0 C temperaturunda tablaşdıqdan sonra müasir D8 difraktometrində onun qəfəs ölçüləri və simmetriyası təyin edilmiş və kristal quruluşu açılmışdır.

Aparılan quruluş tədqiqatları nəticəsində müəyyən edilmişdir ki, $GaIn_3Se_6$ heksaqonal sinqoniyada kristallaşır və onun qəfəs parametrləri: a=7.051 Å, c= 19.148 Å, fəza qrupu P61, V=824.433Å, Z=6 [7]. Quruluş analizi təhlilindən alınan nəticələr əsasında müəyyən edilmişdir ki, tədqiq edilən kristalın quruluşu Se atomlarının heksaqonal kip yerləşmə qaydası əsasında yaranmışdır.

Quruluşda (3Ga+3In) atomları tetraedrik boşluqlarda paylanmışlar. Bu vəziyyətdə atomlararası məsafələr M-Se 2.44 Å təşkil edir. Təyin edilmiş məsafələrə görə tetraedrlərdə kimyəvi əlaqənin təbiəti ion-kovalent təbiətlidir.

Quruluşda In –atomlarının əsas hissəsi triqonal dipiramidalarda beşlik koordinasiyada məskunlaşırlar ki, burada da In-Se məsafələri 2.640 Å və 2.911 Å təşkil edir. Qeyd edək ki, In və Al atomları üçün koordinasiya ədədi adətən 4 və 6 olur [8-10]. Bu cəhətə görə $GaIn_3Se_6$ nümunəsinə bərk məhlul deyil, yeni polimorf faza kimi baxmaq olar.

Növbəti etapda sintez edilmiş kristaldan və PE-dən ibarət kompazit hazırlanmışdır. Kompazit onu təşkil edən komponentlərin homogen ovuntu qarışığının isti preslənməsi yolu ilə alınmışdır. Kompazitin tərkibi uyğun olaraq (20, 30, 40%) $CuGaİn_3Se_6$ və (80, 70, 60%) PE ibarətdir. Nazik təbəqəli kompozit nümunələrin hazırlanması üsulu aşağıdakından ibarətdir:

$Gaİn_3Se_6$ və PE-dən ibarət olan şixta materialını kürəvi farfor dəyirmanında 60 mkm və daha kiçik ölçüyədək xırdalanmış, sonra alınmış kütləni presformaya qoyub aşağıdakı kimi isti presləmə prosesi aparılmışdır. Texnoloji proses belə olmuşdur:

a) əvvəlcə qatışdırılmış şixta P=1MPa təzyiq altında PE-nin ərimə temperaturuna ($T=160^0C$) qədər 3dəq qızdırılır;

b) sonra təzyiq P=15Mpa-dək yüksəldilir, ərimiş şixta 3dəq müddətində təzyiq altında saxlanılır;

c) alınan nazik təbəqə nümunəsi suda bərkitmə yolu ilə soyudulur. Belə soyutma üsulu zamanı təbəqələr daha elastik alınır.

Hazırlanmış nazik təbəqələrin təkrar rentgenoqrafik tədqiqatı aparılmış və müəyən edilmişdir ki, nümunədə yarımkeçirici kristallarında heç bir quruluş dəyişikliyi izlənmir.

Sintez edilmiş kompozitin dielektrik parametrlərini tədqiq etmək üçün onlardan qalınlığı ~170 mkm olan, nanoölçülü təbəqələr hazırlanmış və onların hər iki üzlərinə gümüş pasta çəkilərək kondensatorlar hazırlanmışdır. Rəqəmsal E7-20 immitansi vasitəsilə (102-106 Hs tezlik intervalında) T=300 K temperaturunda tutumun C, σ- elektrik keçiriciliyin, D-dielektrik itkisinin qiyməti ölçülmüşdür. Nümunəyə 1 V gərginlik verilmişdir.

Dielektrik itkisinin (D), tutumun (c), ölçülmüş qiymətlərinə əsasən, dielektrik nüfuzluğunun, (ε) həqiqi və xəyali hissələri və nümunənin elektrik keçiriciliyinin qiyməti aşağıdakı düsturlarla hesablanmışdır.

$$\varepsilon = \frac{cd}{\varepsilon_0 s}\ ; \qquad (1)$$

$$\sigma = \varepsilon\varepsilon_0 2\pi f D \qquad (2)$$

Burada C-kondensatorun tutumu, D-dielektrik itkisi, s-kontaktın sahəsi (gümüş pastası), $\varepsilon_0=8.85\cdot10^{-12}$ F/m-dir.

Tədqiqat nümunələri üzərində aparılan ölçülərin qrafikləri aşağıdakı şəkillərdə göstərilmişdir:

Alınan nəticələrin təhlilindən əvvəl onu qeyd etmək lazımdır ki, yarımkeçirici $GaIn_3Se_6$ $|C_4H_8|$ polietilen əsasında hazırlanmış kompozit nümunələrdən əsas etibarı ilə elektrik sahəsinin tezliyindən və kompozitin tərkibində olan yarımkeçirici hissənin faiz nisbətindən asılı olan elektrikkeçirmə (σ), dielektrik nüfuzluğu (ε) və tədqiqat prosesində enerji itkisi (D)-nin təyin edilməsi məsələsinə həsr edilmişdir.Onu da qeyd etmək lazımdır ki, ölçü prosesində tezliyin (f. kHs) həddi 0-1000, kompozit nümunələrini təşkil edən hissələrin faizi isə 15, 30, 40% yarımkeçiriciylə və uyğun olaraq 60, 70, 80% polietilen kimi götürülmüşdür.

Şəkil 1-də elektrikkeçiriciliyin elektrik sahəsinin tezliyindən və ölçülən nümunələrin tərkibindən asılılığı verilmişdir. Alınan qrafiklərdən aydın olur ki, kompozitin tərkibində kristallik kütlə olan $GaIn_3Se_6$-nın faizi artıqca elektrikkeçiricilik artır. Belə ki, nümunədə

yarımkeçirici kütlənin faizi artdıqca keçiriciliyin qiymətidə 15%-də 156, 30%-də 186, 40%-də 6900-ə yüksəlir. Çox güman ki, ölçmə prosesində elektrik sahəsi tezliyinin artımı temperaturun artımına oxşar təsir rolunu oynayır.



Şək.1. Elektrik keçiriciliyinin tezlikdən asılılığı.



Şək.2. Dielektrik nüfuzluğunun tezlikdən asılılığı.

Şəkil 2-də σ-nın təyini üçün istifadə edilən nümunələr elektrik nüfuzluğunun ölçülməsi üçündə istifadə edilmişdir. ε-nun tezlikdən və kompozitdə yarımkeçirici faza faizinin artmasında asılılığın təhlili göstərmişdir ki, bu asılılıqda da σ-asılılığında olduğu kimi proses baş verir, yəni tezliyin və yarımkeçirici faza faizinin artımından asılı olaraq, ε-nun qiyməti

artır. Amma qeyd edək ki, ε-nun qiymətindəki artım σ-dakı variantdan fərqli olaraq daha sinxron variantda baş verir.



Şək.3. Dielektrik itkisinin tezlikdən asılılığı.

Şəkil 3-də tədqiqat işlərinin aparılması prosesində istifadə edilən enerjinin itkisi mexanizminin xarakteri öyrənilmişdir. Aparılan ölçülərdən alınan qrafiki nəticələrin təhlilindən məlum olur ki, bu prosesdə enerji itkisinin xarakteri olduqca sadədir. Birinci olaraq, onu qeyd edək ki, bu prosesdə itkinin sıçrayışı və ciddi dəyişikliyi hiss olunmur. Verilən qrafiki təsvirlərdən açıq-aydın görünür ki, proseslərdə demək olar ki, enerji itkisinin miqdarı olduqca kiçikdir və bu da yəqin ki, seçilən üsulun dəqiqliyinə bağlıdır.

Beləliklə, işdə təsvir edilən eksperimental tədqiqatların yekunu kimi əldə edilən nəticələr əsasında, bir sıra maraq doğuran cəhətləri təsvir etmək maraqlı olardı. Hər şeydən öncə qeyd etmək lazımdır ki, aparılan ölçü üsulu kompazit variantlı üsul olsa da, onun mahiyyəti tezlikdən asılı xassələr kimi əhəmiyyətli sayıla bilər. Digər tərəfdən maraqlıdır ki, alınan nəticələrin müqaisəli təhlili, kompazit nümunələrin bəzi elektrik xassələrinin tezlikdən və yarımkeçirici kristalın miqdarından asılı olan kəmiyyətləri başqa üsullarla alınan nəticələrlə uzlaşır. Başqa bir mühüm cəhət ondan ibarətdirki, tezliyin təsirindən nümunələrdə xaotik qaydada paylanan polyarlaşma nizamlanır, yəni müəyyən istiqamətdə hərəkətlənir və buda alınan nəticələrlə sonlanır.

---

1. *Войлов Д.Н., Новиков Г.Ф., Песецкий С.С., Ефремова А.И., Иванова Л.Л.* Влияние добавки на электрофизические и релаксационные свойства полиамидов ПА6 // Журнал «Пластические массы». 2008, № 3, с.30.
2. *Лукичёв А.А., Костюков Н.С.* Основные признаки и отличия релаксационной и резонансной поляризации // Вестник АмГУ, 2004, вып. 25, с.7-8.
3. *Емец Ю.П.* Дисперсия диэлектрической проницаемости трех и четырехкомпонентных матричных сред // Журнал технической физики, 2003, том 73, вып. 3, с. 42-52 .
4. *Турик С.А., Чернобабов А.И., Турик А.В., Радченко Г.С.* Неупорядоченные гетерогенные системы: переход диэлектрик-проводник //Электронный журнал "Исследовано в России". 2004, с. 2026-2029.

5. *Turik A.V., Radchenko G.S.* Maxwell-Wagner relaxation in piezoactive media // Appl Phys. 2002, Vol. 35, № 11, p. 1188-1192.
6. *Səmədova Ü.F.* Fizika ü.f.d. Dissertasiyası .AMEA Fizika İnstitutu, 2013.
7. *Ибрагимова С.И., Гусейнов Г.Г., Асадов Ю.Г.* Кристаллическая структура твердого раствора $Ga_{0.5}In_{1.5}Se_3$ // Кристаллография 2015, том. 60, №4, с.547-550.
8. *Семилетов С.А.* О кристаллической структуре селенида индия In_2 Se_3// докл. АН СССР. 1961, том. 6, с.189-191.
9. *Гусейнов Г.Г., Амирасланов И.Р., Кулиев А.С., Мамедов Х.С.* Кристаллические структуры $GaInS_3$ и $GaInSe_3$// Изв.АН СССР. Неорган.материалы. 1987, том. 23, №5, с. 854-856.
10. *Заргарова М.И., Гамидова Р.С.* Трайной сульфид индия и галлия // Изв.АН СССР. Неорган.материалы.1969, том.5, №5, с. 371-375.

ИССЛЕДОВАНИЕ ЗАВИСИМОСТИ НЕКОТОРЫХ ПАРАМЕТРОВ НАНОРАЗМЕРНЫХ КОМПОЗИТОВ СОСТАВА $|C_4H_8|_{1-x}(GaIn_3S_6)_x$

ИБРАГИМОВА С.И.

Изготовлены наноразмерные композиты на основе полиэтилен-полупроводниковых составов C_4H_8 85%- $GaIn_3S_6$ 15%, C_4H_8 70%- $GaIn_3S_6$ 30%, C_4H_8 60%- $GaIn_3S_6$ 40%. Измерены электропроводности (σ), диэлектрические проницаемости (ε) и диэлектрические потери (D) изготовленных образцов.

Ключевые слова: синтез, полиэтилен, полупроводник, структура, композит, тонкий слой, скорость.

THE INVESTIGATION OF THE DEPENDENCE OF NANO-DIMERSIONAL COMPOSITE SOME PARAMETERS OF $|C_4H_8|_{1-x}(GaIn_3S_6)_x$ COMPOSITION

IBRAHIMOVA S.I.

The nano-dimensional composites on the base of C_4H_8 85%- $GaIn_3S_6$ 15%, C_4H_8 70%- $GaIn_3S_6$ 30%, C_4H_8 60%- $GaIn_3S_6$ 40% polyethylen –semiconductor compounds are prepared. The electric conductions (σ), dielectric constans (ε), and dielectric losses (D) of prepared samples are measured.

Key words: synthesis, polyethylene, semiconductor, structure, composite, thin layer, speed.

UOT: 535.317

ELEKTRİK ENERJİSİ GENERASİYASININ MÜASİR METODLARI

[1]MUSAYEVA S.N., [2]KƏRİMOV E.Ə.

[1]Azərbaycan Texniki Universiteti, H. Cavid pros. 25, AZ 1073
[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azadlıq pr. 16/21, AZ 1010

Fotoelementin sturukturunun qeyri-bircinsliyi eyni bir yarımkeçiriciyə müxtəlif aşqarlar daxil etməklə (p – n keçidinin yaradılması) və ya qadağan zonasının eni – elektronun atomdan qopardılması enerjisi müxtəlif olan ayrı-ayrı yarımkeçiricilərin birləşdirilməsi (heterokeçidlərin yaradılması) ya da ki, yarımkeçiricinin qadağan zonasının eninin qradientinin yaranmasına gətirən kimyəvi tərkibinin dəyişdirilməsi vasitəsi ilə alına bilər.

Açar sözlər: fotoelement, günəş şüalanması, aşqarlama, yarımkeçirici, dayanıqlılıq, monokristal.

Müasir dövrümüzdə bərpa olunan enerji elektrik və istilik energetikasının ən dinamik inkişaf edən istiqamətidir. Belə enerjini külək, su axınları, günəş şüalanması, geotermal su mənbələri, biokütlələr vasitəsi ilə əldə etmək mümkündür. Bu zaman ilkin enerji resursunun çevrilməsinin enerji effektivliyinin artırılmasına, müxtəlif növ bərpa olunan enerji mənbələri (BOEM) əsasında elektrik stansiyaları istifadə edməklə avtonom elektrik təchizatı sistemlərinin rasional hazırlanmasına böyük diqqət yetirmək lazımdır.

Bərpa olunan enerji mənbələri (BOEM) – planetdə daim mövcud olan təbii proseslərdəki enerji resursları, eləcə də bitki və heyvan mənşəli biomərkəzlərin həyat fəaliyyəti nəticəsində yaranan resuslardır. BOEM-lərin xarakterik xüsusiyyəti - onların tükənməməsi və ya kiçik zaman müddətində - bir nəsil insanların yaşayış müddəti ərzində özlərinin potensialını bərpa etmələridir.

Demək olar ki, 30 il əvvəl BMT-nin Baş Assambleyasında 33/148 (1978-ci il) qətnaməsinə uyğun olaraq aşağıdakı enerji formalarını nəzərdə tutan "yeni və bərpa olunan enerji mənbələri" anlayışı daxil edilmişdir: günəş, geotermal, külək, dəniz dalğalarının enerjisi, qabarma və çəkilmələr, ağac biokütləsinin enerjisi və s. BOEM-ə ən çox günəş şüalanmasının, küləyin, su axınlarının, biokütlələrin və yer planeti səthinin istilik enerjisi aid edilir. BOEM-i enerji növlərinə görə aşağıdakı kimi klassifikasiya etmək olar:

- mexaniki enerji (külək və su axınlarının enerjisi);
- istilik və şüa enerjisi (günəş şüalanması enerjisi və Yer planetinin istiliyi);
- kimyəvi enerji (biokütlədə cəmlənmiş enerji).

Əgər faydalı iş əmsalı kimi mənbənin mexaniki işə çevrilə bilən enerji payını təyin edən enerji keyfiyyəti anlayışını istifadə etsək – BOEM-i belə klassifikasiya etmək mümkündür: mexaniki enerjinin bərpa olunan mənbələri yüksək keyfiyyəti ilə xarakterizə olunur və əsasən elektrik enerjisinin istehsalı üçün istifadə edilir. Belə ki, hidroenerjinin keyfiyyəti 0,6-0,7; külək enerjisinin isə 0,3-0,4 qiymətləri ilə xarakterizə olunur. Istilik və şüalanma BOEM-in keyfiyyəti 0,3-0,35-dən yuxarı deyildir. Ən aşağı keyfayyət göstəricisi isə fotoelektrik çevrilməsində istifadə olunan günəş şüalanmasındadır – 0,15-0,3. Biokütlənin də enerji keyfiyyəti kifəyət qədər aşağı olub, 0,3 qiymətindən böyük olmur.

Nüvə energetikası üçün yanacaq ehtiyatlarının və xammalın məhdudluğu BOEM-dən enerji istehsalının artırılmasını mühüm məsələyə çevirir. Planetimizdə BOEM-dən alınan enerji istifadə olunan enerjinin 15%-dən artığını təşkil edir. Bu zaman əsasən ağacdan alınmış biokütlənin payına 10%-dən artıq (xüsusən də inkişaf etməkdə olan ölkələrdə), hidroelektrik stansiyaların enersi payına isə 3%-ə kimi bir rəqəm düşür. Külək, günəş, qabarmalar, geotermal, bioyanacaq və s. kimi BOEM-dən istifadə olunması təxminən 2% təşkil edir. Lakin, bu rəqəm zamandan asılı olaraq eksponensial qanunla sürətlə artır. Günəş enerjisindən

istifadə hər il təxminən 1,5 dəfə artır. 2010-cu ildə dünyada günəş enerjisindən istifadə olunması enerji istehlakında aşağıdkı rəqəmlərlə ifadə olunurdu: günəş su qızdırılması – 0,17%, fotoelementlər tərəfindən istehsal olunan elektrik enerjisi – 0,06%, mərkəzləşdirilmiş günəş enerjisi – 0,002%. Fərziyyələrə görə 2020-ci ildə günəş enerjisinin dünya enerji istehsalında payı 10%-ə çatacaqdır. Bununla yanaşı gələcəkdə təbii yanacaq ehtiyatlarının qiymətinin asan çıxarılan ehtiyatların tükənməsi səbəbindən artımı gözlənildiyi halda, bərpa olunan mənbələrdən istehsal olunan enerjinin qiymətinin aşağı düşəcəyi proqnozlaşdırılır. Fotoelementlər tərəfindən istehsal olunan elektrik enerjisinin qiyməti hər il 15% aşağı düşür. ABŞ kimi dövlətdə 2015-ci ildən bu qiymət istilik elektrik stansiyaları tərəfindən istehsal olunan enerji qiyməti ilə bərabərləşib.

Yer planeti tərəfindən udulan günəş şüalanmasının gücü 174 TVt təşkil edir ki, bu da dünya enerji istehlakından təxminən 10000 dəfə çoxdur. Sənaye məqsədləri üçün istifadə oluna bilən günəş şüalanmasının gücü təxminən 50 TVt qiymətləndirilir. Hazırda istehsal olunan günəş enerjisi özündə günəş batareyaları, istilik günəş elektrik stansiyaları tərəfindən alınan və günəş qızdırıcı istilik enerjisi kimi elektrik enerjilərini cəmləşdirir. Günəş batareyaları – günəş enerjisini birbaşa sabit elektrik cərəyanına çevirən bir neçə fotoelektrik çeviricilərin (fotoelementlərin) birləşməsindən alınan qurğudur. Daxili fotoeffekt hesabına işləyən bu qurğularda maddənin elektrik xassələri – xüsusi ilə elektrik keçiriciliyi dəyişir. Bərk cismin işıqlanması zamanı maddə tərəfindən udulan şüalanma kvantları əsasən elektronlara verilir. Bu, atomlarda elektronların yenidən paylanmasına gətirir: elektronlar daha yüksək energetik səviyyələrə keçir.

Fotoelementin sturukturunun qeyri-bircinsliyi eyni bir yarımkeçiriciyə müxtəlif aşqarlar daxil etməklə (p – n keçidinin yaradılması) və ya qadağan zonasının eni – elektronun atomdan qopardılması enerjisi müxtəlif olan ayrı-ayrı yarımkeçiricilərin birləşdirilməsi (heterokeçidlərin yaradılması) ya da ki, yarımkeçiricinin qadağan zonasının eninin qradientinin yaranmasına gətirən kimyəvi tərkibinin dəyişdirilməsi vasitəsi ilə alına bilər.



Şək. 1. Ümumi şəkildə fotoelement qurğusu.

Fotoelementi – aşağı və yüksək enerjili iki metastabil halı olan sistem kimi təsvir etmək olar. Fotoelementin materialı bu hallar üzrə yükləri paylayaraq elektromaqnit şüalanmasını udur. Elektrik kontaktları əks işarəli yükləri seçir. E = hν enerjili işıq kvantı məxsusi yarımkeçiricinin üzərinə düşərək elektronun valent zonadan sərbəst zonaya keçidini təmin edir (şəkil 2 a). N – tip yarımkeçiricilərdə işıq kvantı elektronun donor səviyyəsindən sərbəst zonaya keçidini təmin edir (şəkil 2 b). P – tip yarımkeçiricilərdə isə elektron valent zonadan akseptor səviyyəsinə keçir (şəkil 2 c).

Fotoeffekt yaratmaq qabiliyyəti olan kvantın minimal enerjisi hν = ΔE qadağan zonasının eninə bərabər olur. Demək olar ki, bütün fotoelementlərdə günəş şüalanmasını udan – yarımkeçiricidir. Üzvi uducular əsasında yaradılmış bəzi qurğularda elektron – deşik cütü ayrılma və yüklərin toplanması mərhələsindən əvvəl keçid bəndi kimi formalaşır. Əgər yalnız

bir tip yarımkeçiricidən istifadə olunursa ümumi yanaşma kimi p – n keçidinin yaradılması ön plana keçir. Material ya p – və ya da n – tip, başqa sözlə desək ya əlavə elektron və ya da deşiklərə malik olmalıdır. Silisiumda p – və ya n – Si alınması üçün uyğun olaraq B və ya P tip aşqar atomlar əlavə edilməlidir.



Şək. 2. Elektromaqnit şüalanması təsiri altında müxtəlif tip yarımkeçiricilərdə yük daşıyıcıların energetik keçidlərinin sxemi.



Şək. 3. Fotoelementin cərəyan şiddətinin və gərginliyinin işıqlanma intensivliyindən asılılığı.



Şək. 4. Fotoelementin ekvivalent elektrik sxemi.

Real fotoelementlər özlərində kontaktlarda müqavimət, defektlərdə yük daşıyıcıların generasiyası və kombinasiyasını və birləşmədən cərəyan itkisini birləşdirir. Real fotoelementin effektivliyini aşağıdakı formul üzrə hesablamaq mümkündür:

$$I = I_L - I_0\left(exp\left(\frac{q(V+IR_S)}{nk_BT}\right) - 1\right) - \frac{(V+I)R_S}{R_{SH}}.$$

Burada:

V – fotoelement tərəfindən verilən gərginlik;
I_L – fotoelementin işıqlanması zamanı generasiya olunan cərəyan şiddəti;
I – fotoelement tərəfindən verilən cərəyan şiddəti;
I_0 – diodun doyma zamanı cərəyan şiddəti;
n – diodun adətən 1-dən və 2-yə qədər intervalda yerləşən ideallıq faktoru (ideallıq faktoru birləşmə zonasında yüklərin rekombinasiyası ilə əlaqədardır);
R_{SH} – paralel (şuntlayıcı) müqavimət, ideal fotoelement üçün = ∞;
R_S – ardıcıl müqavimət, ideal fotoelement üçün = 0;
q – elementar yük;
k_B – Bolsman sabiti;
T – fotoelementin kelvinlərlə ölçülən temperaturu.

Fotoelementin cərəyan şiddətinin və gərginliyinin işıqlanma intensivliyindən asılılıqları və fotoelementin ekvivalent elektrik sxemi uyğun olaraq şəkil 3 və 4-də verilmişdir.

Fotoelementin F.İ.Ə.-si aşağıdakı formul üzrə hesablanır:

$$\eta = \frac{P_{el}}{P_{ud}}.$$

Burada, P_{el} – alınan elektrik cərəyanın gücü, P_{ud} – isə udulan işıqlanmanın gücüdür. Fotoelement tərəfindən verilən cərəyanın qiyməti temperaturdan və işıqlanmadan asılıdır. Silisium əsasında tipik fotoelement üçün verilən gərginlik cərəyanın kiçik də olsa artmasına baxmayaraq temperaturun artması ilə azalır. Temperaturun 1^0 C artması f.i.ə.-nin təxminən 0,5% azalmasına səbəb olur. Üzvi maddələr əsasında fotoelementlərdə isə əksinə olaraq f.i.ə. temperaturun artması ilə artır. Ayrı-ayrı fotoelementlər xarici istehlakçıya lazım olan sabit cərəyanın gücünü almaq üçün ardıcıl və ya paralel şəkildə birləşdirilir. Əgər dəyişən cərəyan lazım olarsa, invertor adlanan qurğulardan istifadə olunur. Fotoelementlərin modul birləşdirilməsi bir neçə vattdan meqavattda qədər güc almağa imkan verir. Maksimal f.i.ə.-nin alınması üçün cərəyanın və gərginliyin maksimallaşmasına nail olmaq lazımdır. Cərəyan şiddəti və gərginlik materialın qadağan zonasının enerjisindən, yüklərin generasiya dərəcəsindən və onların rekombinasiyasından (F.İ.Ə.-nin azalmasına səbəb olan müsbət və mənfi yüklərin yenidən birləşməsi) asılıdır. Qadağan zonasının enerjisi yarımkeçiricinin materialından asılı olub, kristallik struktur, kimyəvi tərkib və az da olsa materialın struktur xassələri (məsələn, zərrəciklərin ölçüsü) ilə əlaqədardır. Praktikada generasiya və rekombinasiya fotoelementin energetik effektivliyini təyin edən başlıca fiziki hadisələrdir. Verilmiş fotoelementin generasiya və rekombinasiyası haqqında informasiyanı haqqında məlumat verən standart funksiya - QE kvant effektivliyi və ya spektral cavabdır:

$$QE = QE(\lambda)$$

QE(λ) – özəyin vahid zaman müddətində verdiyi elektronların sayının fotoelementi işıqlandıran fotonların sayına nisbətinə bərabərdir. Fərz edilir ki, hər bir foton bir elektron – deşik cütü yaradır. Praktikada isə ən effektiv fotoelementlər üçün belə QE < 1 qiymətini alır ki, bu da fotoelementlərin effektivliyinin artırılması mümkünlüyünü göstərir. Şəkil 5-də fotoelementlərdə istifadə olunan bəzi materiallar üçün QE(λ)-nın tipik əyriləri göstərilmişdir. Hazırda fotoelementlərin texnologiyasının inkişafı effektivliyin və istismar müddətinin artırılması, eləcə də qiymətlərin aşağı düşməsi istiqamətində yönəlmişdir. F.İ.Ə.-nin 20-25% diapazonuna çatdırılması həm monokristallik və həm də polikristallik silisium əsasında fotoelementlərdə mümkün olmuşdur. F.İ.Ə.-nin böyük (40%-dən çox) qiymətləri bir neçə p – n (III və IV qrup yarımkeçiricilər əsasında) keçidinə malik günəş batareyalarında alınmışdır.

Enerji itkilərinin azaldılması üçün müxtəlif tədbirlər hazırlanır və uğurla həyata keçirilir. Bunlara aşağıdakılar aiddir:

- günəş şüalanması üçün qadağan zonasının optimal eninə malik yarımkeçiricilərin istifadə olunması;
- yarımkeçirici strukturun onu optimal aşqarlamaqla xassələrinin istiqamətlənmiş yaxşılaşdırılması;
- fotoelementin konstruktiv parametrlərinin optimallaşdırılması(p – n keçidin dərinliyi, baza təbəqəsinin qalınlığı, kontaktın tezliyi və s);
- fotoelementin şəffaflaşdırılmasını və termonizamlanmasını təmin edən çoxfunksiyalı optik örtüklərin istifadə edilməsi;
- əsas udulma zolağının kənarında günəş spektrinin uzun dalğalı oblastına şəffaf olan fotoelementlərin işlənilməsi.



Şək. 5. Fotoelementlər üçün müxtəlif materiallarda QE% kvant effektivliyinin günəş şüalanması dalğa uzunluğundan asılılığı.

Fotoelementlər üçün materiallara aşağıdakı tələblər qoyulur:

Miqyaslılıq. Çoxlu sayda element almaq və materialın aşağı temperaturlarda məhsulun yüksək çıxışı təmin olunmaqla tez bir zamanda emal olunması imkanı.

Dayanıqlıq. Materiallar və proseslər işlək temperaturda stabil olmalıdır.

Maya dəyərinin minimum olması. Materialların qiyməti əldə olunan enerjinin qiymətinin 15%-dən çox olmamalıdır. Əgər enerjini günəş şüalanması olmadığı period müddətində saxlamaq lazım gələrsə, maya dəyərinə enerjinin saxlanılmasının qiyməti də əlavə olunmalıdır.

İşləmə müddəti. Elektrik stansiyasının elektrik enerjisini nominal səviyyədə istehsal etdiyi zaman müddəti. Buraya fotoelementlərin işləmə müddətindən əlavə elektrik stansiyasının konstruksiyalarının və enerjinin saxlanılması və çevrilməsi qurğularının işləmə müddəti də daxil edilir.

Etibarlılıq. Etibarlılıq həm işləmə müddətinə, həm də maya dəyərinə təsir edir. Xidmətə və komponentlərin əvəz edilməsinə çəkilən xərclərin azaldılması elektrik enerjisinin istehsalına çəkilən xərcləri də azaldır.

Komponent və materialların istehsalının ekoloji təmizliyi. Günəş elektrik enerjisinin özünün istehsalı ekoloji cəhətdən təmiz olduğundan material və komponentlərin istehsalı zamanı da buna ciddi diqqət yetirilməlidir.

Texniki xidmətin rahatlığı. Monokristallik və polikristallik silisium əsasında hazırkı nəsil qurğuların işləmə müddəti təxminən 25-30 il təşkil edir. Günəş batareyalarının texnologiyasında ən mühüm parametrlərindən biri alınan enerjinin maksimal gücünün dollar/vatt-la ölçülən qiymətidir. Axırıncı üç onillikdə alınan elektrik enerjisinin qiyməti 3,65

$/vatt-dan 0,25 $/vatt-a qədər enmişdir. Modulların (fotoelementlərin) qiyməti günəş elektrik stansiyasının qiymətinin 50%-ni təşkil edir.

Güzgü və ya linzalar formasında mərkəzləşdirən optik qurğuların istifadə edilməsi günəş şüalanmasını çox kiçik – fotoelementin yerləşdiyi oblastda cəmləyir. Beləliklə, lazım olan materialın miqdarını azaltmaq olar və nisbətən baha lakin, çox effektli materialların istifadə olunması mümkünlüyü yaranar. Fotoqalvanik qurğular aşağıdakı tiplərə ayrılır:

Homogen fotoelementlər. Yeganə material – kristallik silisium aşqarlanmanın köməyi ilə elə dəyişir ki, bir tərəf müsbət yüklənmiş deşiklərə malik p – tip, digər tərəf isə mənfi yüklü elektronlara malik n - tip olsun. Belə homogen materialda elektromaqnit şüalanması enerjisinin elektrik enerjisinə çevrilməsinin effektivliyini artırmaq üçün fotoelementin yalnız aşağıdakı parametrlərini dəyişə bilərik: p – n keçidinin fotoelementin səthindən aşağı səviyyədə dərinliyini; p – n keçidinin hər iki tərəfindən aşqar atomların sıxlığı və paylanmasını; yarımkeçiricinin təmizliyi və şəffaflığını. Ən çox yayılmış homogen fotoelementlərə misal – Si və GaAs ola bilər.

Silisium fotoelementlərin f.i.ə.-ni artırmaq üçün səthin passivləşdirilməsi, işığın tutulması, işıqlanan səthən kiçik səthə malik kontaktlar, mürəkkəb antiəksedən örtüklər istifadə olunur. Amorf Si:H silisiuma nəzərən daha yüksək udma əmsalına malik olduğundan nazik təbəqələrdən istifadə etmək olar.

Heterogen fotoelementlər. Belə tipə misal olaraq CdS və CIGS kimi iki müxtəlif yarımkeçiricinin birləşdirildiyi qurğunu göstərmək olar. Bu sturuktur fotoelementi elə materiallardan almağa imkan verir ki, bu zaman işıq silisiuma nəzərən daha yaxşı udulur və beləliklə, nazik təbəqələr kimi istifadə olunmağa imkan yaranır. Bütün günəş şüalanması enerjisi nazik təbəqələrdə (qalınlığı bir neçə mikron) udula bildiyindən materialların təmiz olması şərti silisiuma nəzərən yumşaldıla bilər. Bu iki material heterogen qurğuda müxtəlif rollar oynayır. Əsas lay və ya "pəncərə" layı işıqlanma zamanı şəffaf qadağan zonasının eni böyük olan materialdan hazırlanır. Şəffaflıq bütün işıqlanmanın qadağan zonasının eni aşağı olan alt qata çatmasına şərait yaradır ki, burada udulan işıq kvantının enerjisi qadağan zonasının enerjisindən böyük olur.

Eksiton fotoelementlər. Nisbətən yeni olan belə fotoelementlərdə işıq şüasını udan təbəqə üzvi (molekulyar və ya polimer) materialdan hazırlanır. Bu materiallarda günəş işığı kvantının udulması silisiumda olduğu kimi sərbəst elektron və deşik yaratmır. Bunun əvəzinə belə materialda həyəcanlanmış hala birləşmiş elektron və deşik cütlüyü, yəni eksiton kimi baxmaq olar. Üzvi materiallarda cütlüyün əlaqə enerjisi qeyri-üzvi materiallarda olduğundan 10-20 dəfə azdır. Deməli, birləşmiş yük daşıyıcıları asanca ayrılaraq sərbəst daşıyıcılar ola bilir. Qurğunun işi özündə donor materialının (polimer və ya rəngləyici) optik həyəcanlanması, donor və akseptor materialları (məsələn, fulleren və ya oksid) arasındakı laya eksitonların yayılmasını, elektronların deşiklər olan akseptorun materialına yeridilməsi və sonradan elektrik cərəyanını almaq üçün yük daşıyıcıların kontaktlara nəqlini birləşdirir.

Üzvi materiallar əsasında fotoelementlərin f.i.ə.-si kiçik qurğularda 8%, nisbətən böyük qurğularda isə cəmi 4%-ə çatır. Belə qurğuların üstünlüyü istehsalın aşağı maya dəyərinə malik olması və aşağı temperaturda işləmələridir. Çatışmayan cəhətlər isə nisbətən kiçik f.i.ə. və işləmə müddətidir (təxminən 5000-30000 saat). Fotoelementlər üçün günəş spektrinin udulması diapazonu daxil olmaqla geniş xassələr toplusuna malik üzvi maddələrin hazırlanması da mümkündür ki, bu perspektivdə belə maddələrin kombinə edilməsi ilə f.i.ə.-ni artırmağa imkan verəcəkdir. Məsələn, şüşəyə zərrəciklərin inkapsulyasiyasını işləmə müddətini 10-25 ilə çatdıra bilər. Optik elementlər həm istilik enegetikası həm də fotoelementlərə istiqamətləndirilmə zamanı konsentrasiya üçün istifadə olunur. Optik elementlər üçün güzgülər adətən səth təbəqədə əks edən örtük çəkilmiş (gümüş) şüşədən hazırlanır. Bu örtük isə öz növbəsində ətraf mühitin təsirindən müdafiə olunmaq üçün başqa bir örtüklə qorunur. Əks edən örtüklər üçün materiallar 90%-dən böyük olan əksetmə əmsalına malik olmalıdır.

İstilik günəş energetikasında istifadə olunan materiallar yüksək temperaturlara (600^0 C-dən böyük) və təzyiqlərə (600 atm-dən böyük) davamlı olmalıdır. Hazırda belə materialları paslanmayan poladdan və ya nikel ərintilərindən hazırlayırlar. Lakin belə materiallar baha başa gəlirlər.

---

1. *Бальзанников М.И., Елистратов В.В.* Возобновляемые источники энергии. Аспекты комплексного использования. Самара: ООО «Офорт», СамГАСУ, 2008. 331 с.
2. *Безруких П.П.* Ресурсы и эффективность использования возобновляемых источников энергии в России: учебное пособие. М.: Книга-Рента, 2008. 128 с.
3. *Безруких П.П.* Состояние и перспективы развития возобновляемой энергетики // Электрика. 2008. №9. С. 3-10.
4. *Васильев Ю.С., Елистратов В.В.* Возобновляемая электроэнергетика и энергетическая безопасность // Академия энергетики. 2007. №2(16). С. 14-19.
5. *Blunden L.S., Batten W.M.J., Harrison M.E., Bahaj A.S.* Comparison of boundary layer and field models for simulation of flow through multiple-row tidal fences. Proceedings of the 8th European Wave and Tidal Energy Conference, Uppsala, Sweden, 2009.
6. *Elistratov V.V.* Electrical Energy Sector Overvien. Wind Energy International 2011/2012/ WWEA 2011/ Bonn. Pp. 457.
7. *Falnes J.* Ocean Waves and Oscillating Systems. Cambridge University Press, 2002. 288 p.
8. *Giles J., Godfrey I., Bryden I., Myers L., O'Nians J., Bahaj A., Griffiths J.* An innovative tidal fence development for the Severn Estuary, UK. - 3rd International Conference on Ocean Energy, 06.10.2010. Bilbao, Pp.

СОВРЕМЕННЫЕ МОТОДЫ ГЕНЕРАЦИИ ЭЛЕКТРИЧЕСКОЙ ЭНЕРГИИ

МУСАЕВА С.Н., КЕРИМОВ Э.А.

Преимущество гетерогенных устройств перед гомогенными заключаются в том что, многие материалы фотоэлементов практически могут легироваться только для получения p-типа или только n-типа, но не для получения обоих типов полупроводника, поэтому в гетерогенных устройствах могут использоваться различные перспективные материалы. Кроме того, слой «окна» с высокой энергией запрещенной зоны уменьшает электрическое сопротивление фотоэлемента и потери электрической энергии.

Ключевые слова: фотоэлемент, солнечное излучение, легирование, полупроводник, устойчивость, монокристалл.

MODERN ELECTRIC POWER GENERATION METHODS

MUSAEVA S.N., KERIMOV E.A.

The advantage of heterogeneous devices over homogeneous ones is that many photocell materials can practically be doped only to produce p-type or only n-type, but not to produce both types of semiconductor, so various promising materials can be used in heterogeneous devices. In addition, the layer of the "window" with a high energy band gap reduces the electrical resistance of the photocell and the loss of electrical energy.

Key words: photocell, solar radiation, alloying, semiconductor, stability, single crystal.

UOT 662.997

GÜNƏŞ SU NASOS SİSTEMLƏRİ VƏ TƏTBİQİ

MƏMMƏDOV R.R.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi
rsm_mamedov@hotmail.com

Məqalədə subartezian quyuları və ya digər su mənbələri vasitəsilə suvarılan ərazilərdə elektrik enerji təchizatında alternativ enerji mənbələrindən istifadənin tətbiqi və subartezian quyularının mərhələlərlə elektron idarəetmə sistemlərinə keçirilməsi məsələlərinə baxılmışdır. Məqsəd günəş radiasiyası, bu radiasiyadan alınan elektrik enerjisi və bu enerjiyə uygun arteziandan və ya digər mənbədən su hasilatı, sistemin strukturu, xarakteristikası, texniki göstəriciləri və iş prinsipini göstərməkdir.

Açar sözlər: günəş, su, nasos, smart, suvarma, sistem, stansiya, enerji.

Məlum oldugu kimi, müasir dövrdə enerji ehtiyatları bütün bəşərriyətin həyat mənbəyidir, yüksək həyat səviyyəsinin, inkişaf etmiş iqtisadiyyatın və milli təhlükəsizliyin təməlidir. Enerji problemləri dövrümüzün vacib qlobal problemlərindən biridir. Dünyada enerji istehsalı artdıqca, ekoloji problemlərə təsiri də artır. Qlobal iqlim problemləri, dünyanın aparıcı institutlarını günəş və külək enerjisi kimi ekoloji təmiz bərpa olunan enerji mənbələrindən geniş istifadənin məqsədəuyğunluğu barədə düşünməyə məcbur edir. Bu baxımdan qlobal miqyasda aparılan araşdırmalar və əldə olunan təcrübələr sübut edir ki, günəş radiasiyası, yüksək faydalı iş əmsalı(FİƏ) ilə digər enerji növlərinə (elektrik enerjisi, istilik və s.) çevrilə bilən daha keyfiyyətli enerji mənbəyidir. Günəş enerjisi hər yerdə mövcuddur. Günəş enerjisi dünyanın ən zəngin, həm də ekoloji cəhətdən səmərəli bir enerji mənbəyidir. Günəş enerjisi günümüzün enerji böhranına cavabdeh ola bilər.

Bəzi bölgələrin iqlim şəraiti günəş enerjisinin inkişafına üstünlük verir. Bu, külək və günəş enerjisinin geniş yayılması üçün əlverişli coğrafi şəraiti olan ərazilərdir. Belə ərazilərdə günəş enerjisinin bolluğu, su təchizatı problemləri, elektrik enerjisi tariflərinin və yanacaq qiymətlərinin daim artması fərdi istehlakçılar üçün səmərəli günəş su qaldırıcı qurğuların yaradılması məsələsini olduqca aktuallaşdırır. Hesab edirik ki, bu qəbildən olan etibarlı, işlək və səmərəli qurğular tətbiq etməklə problemin həllinə nail olmaq olar.

Dünyadakı milyonlarla insan sudan istifadə məhdudluğu yaşayır. Bir çox ölkələrdə yeraltı su sistemlərini yanacaq üçün dizel istifadə edən elektrik su nasosları vasitəsilə çıxarılır. Bununla birlikdə, bu sistemlər təkcə müntəzəm xidmət və yanacağın alınmasını tələb etmir, eyni zamanda qlobal iqlim sistemini dəyişdirən karbon qazı da buraxır.

Günəş su nasosu sistemləri dizel nasoslarına alternativ variant ola bilər. İllərlə aparılan tədqiqat və texnoloji inkişafdan sonra, belə sistemlərin əməliyyat, maliyyə və ekoloji cəhətdən davamlı olduğu sübut edilmişdir. Son illərdə günəş texnologiyalarının dəyəri olduqca aşağı düşmüşdür. Günəş panellərinin təxminən 25 il təminatlı istismar müddəti var və bu müddət ərzində az qulluq tələb edir. Global enerji problemlərinin tügyan etdiyi dünyanın bir sıra dövlətləri xüsusilə Çin, Hindistan, Mərakeş, Keniya və digər Afrika dövlətləri günəş su nasos sistemlərinin tətbiqinə xüsusi önəm verirlər.

Məlumat üçün bildiririk ki, sözü gedən məsələ Azərbaycan Respublikasında da dövlət səviyyəsində ətraflı araşdırılır və sahənin inkişafı üçün müvafiq qərarlar qəbul olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 dekabr tarixli 918s saylı sərəncamı "Subartezian quyuları vasitəsilə suvarılan ərazilərdə elektrik enerjisinin alternativ enerji mənbələrindən istifadənin tətbiqi və subartezian quyularının mərhələlərlə elektron idarəetmə sistemlərinə keçirilməsi"-nə dair tapşırığına Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində (ABOEMDA) aidiyyəti üzrə baxılmışdır. Ölkənin kənd təssərrüfatına yararlı torpaq sahələrinin, suvarma sistemlərinin bu günki vəziyyəti və ölkə

ərazisində mövcud alternativ və bərpa olunan enerji potensialı, beynəlxalq təcrübə, bu sahəyə tətbiq olunan yeni texnologiyalar ətraflı öyrənilmiş və nəticə etibarilə aşagıdakı istiqamətlər sahənin inkişaf etdirilməsi üçün prioritet götürülmüşdür.

- Suyun səmərəli istifadəsi, suya, enerjiyə, dizelə və kömürə qənaət;
- Dizel nasos sistemlərindən və dizel aqreqatlarından istifadənin ətraf mühitə zərəri, ətraf mühitin qorunması, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 2015-ci ildə imzalanmış Paris Sazişinə əsasən "Milli səviyyədə Müəyyənləşdirilmiş Töhfə" üzrə Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərinin yerinə yetirilməsi, CO_2 tullantisının azaldılması;
- Əlverişsiz ərazilərdə suvarma torpaqların bərpası, regionlarda xüsusilə özəl sektorda alternativ və bərpa olunan enerjinin tətbiqi və inkişafı, aşağı əməliyyat xərcləri, aşağı layihə riski, günəş su pompaları texnologiyaları bazarının regionda inkişafı, müvafiq sahə üzrə kiçik biznesin/ məşğulluğun yaradılması;
- Quraşdırmanın, tətbiqin infrastrukturun mövcud olmadığı ərazilərdə mümkünlüyü;

Azərbaycan Xəzər dənizinin qərb sahilində, Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində yerləşir. Azərbaycan əsasən quru iqlimə malik (arid) zonada yerləşdiyinə görə burada kənd təsərrüfatının inkişafı həmişə süni suvarma aparmaqla mümkün olmuşdur. Ölkə su ehtiyatlarının qıtlığı problemini yaşayır. Azərbaycan qədim suvarma əkinçiliyi diyarıdır. Suvarılan torpaqlar ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin üçdə birini (1432,7 min hektar) təşkil etsə də ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95%-i bu torpaqlardan götürülür. Suvarılan torpaqların təxminən üçdə birindən çoxu (565 min hektarı) mexaniki üsulla, o cümlədən 349,4 min hektar elektrikləşdirilmiş, 68,2 min hektar dizel nasos stansiyaları ilə, 147,7 min hektarı isə subartezian quyuları vasitəsi ilə suvarılır.

Bu gün bəşəriyyəti düşündürən problemlərdən biridə atmosferin çirklənməsidir. Məlum olduğu kimi, Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişi üzrə Nəzərdə Tutulan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (İNDC) barədə məlumatları Konvensiyanın Katibliyinə təqdim etmişdir. Paris Sazişi üzrə qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə özünün töhfəsi olaraq 2030-cu ilədək istilik effekti yaradan qaz emissiyalarının səviyyəsinin 1990-cı baza ili ilə müqayisədə 35% azaldılmasını hədəf kimi götürmüşdür. Aparılan araşdırmaların nəticələri göstərir ki, ölkəmizin Paris Sazişi üzrə götürdüyü öhdəliklərin yerinə yetirilməsində Alternativ və Bərpa Olunan Enerji Mənbələrindən (ABOEM) istifadəsi hesabına elektrik və istilik enerjisinin istehsalı mühüm töhfələr verə bilər. Rəsmi statistik məlumatlara görə ölkə üzrə istilik effekti yaradan qaz emissiyalarının təxminən 80%-dən çoxu energetika sektorunun payına düşür. Eyni zamanda bildiririk ki, Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişafına dair Strateji Yol Xəritəsi"ndə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üzrə istehsal gücünün artırılması üçün əlavə investisiya qoyuluşları və iqtisadiyyatın bütün sahələrində tətbiqi nəzərdə tutulmuşdur. ABOEMDA tərəfindən mövcud və 2030-cu ilədək yaradılacaq bərpa olunan enerji mənbələri üzrə yeni generasiya gücləri və istehsal olunacaq elektrik və istilik enerjisinin həcmi qiymətləndirilmişdir. 2030-cu ildə ABOEM üzrə elektrogenerasiya güclərinin 3461 MVt-a çatdırılacağı, istehsalın 8471.1 milyon kVt saat təşkil edəcəyi və nəticədə karbon emissiyasının 3.8 milyon ton azalması proqnozlaşdırılır.

Respublikamızın ərazisinə düşən illik günəş şüalarının bolluğu günəşli günlərin sayının cox olması Abşeron zonasında və Xəzər akvatoriyasında yüksək külək potensialının mövcudlugu bu sahənin inkişaf etdirilməsini zəruri edir. Azərbaycanın yerləşdiyi uygun ərazi üçün təxmini 265 günəşli gün götürülür, başqa sözlə 1200-1800 kVt·saat/m^2/il, 3,5- 5 kVt·saat/m^2/gündür. Eyni zamanda qeyd etmək lazımdır ki, illik istehsal gücü 65MVt çatdırılması gözlənilən "Azgüntex" MMC-də günəş modulları istehsal edilir. Həmçinin yuxarıda qeyd etdiyimiz kimi PV panellərin 25 il təminatlı istismar müddəti vardır. Bir neçə resursun birlikdə, məsələn hibrit tipli elektrik stansiyalarının - günəş enerjisi, külək enerjisi, turbulent hidro enerji, kicik çaylarda su elektrik stansiyası, enerjinin aklumyasiyası, sistemin şəbəkə və şəbəkəsiz quraşdırılması və istifadə imkanları möcuddur. PV panellərinin

quraşdırılmasının müəyyən üstünlükləri də var. Belə ki, asan quraşdırılır, yanacaq istifadə etmir və əlavə xərclər yoxdur, sadə və etibarlıdır, mobildir. Günəş panelləri hətta regional səviyyədə və uzaq ərazilərdə etibarlı ola bilər, onların olduqca aşağı əməliyyat xərcləri vardır, asan daşınması və köçürülməsi mümkündür, az təmir ediləndir, məhsuldarlıq ehtiyac olan zamanlarda artır, su kanalların da və ya su anbarlarında quraşdırılma imkanı vardır ki, bu da temperaturun yüksək oldugu dövrlərdə suyun buxarlanmasının qarşısını alır və həmdə daha çox sahəni zəbt etmir. Əlavə olaraq sahələrdə gecə işıqlandırması və digər növ avadanlıqların, müşahidə üçün kamera sistemlərinin enerji təchizatını icra edə bilər. Fotovoltaik (PV) modullar nəsli, günəş enerjisindən istifadə üçün səmərəli hesab olunur. Günəş panelləri (fotovoltaik hücrələrin bir sıra) artıq geniş şəkildə tətbiq olunur. Günəş panelləri günəş enerjisini birbaşa elektrik enerjisinə çevirən günəş hücrələrindən (fotovoltaik çeviricilər) ibarətdir. Fotoelektrik çeviricilərin iki növü geniş yayılmışdır: monokristal və polikristal silikondan hazırlananlar. İstehsal texnologiyasında fərqlənirlər. Birincilərinin səmərəliliyi 17,5% -ə qədərdir, ikincisi -15%-dir. Bütün qurğunun səmərəliliyinə böyük təsir göstərən günəş batareyasının ən vacib texniki parametri xalis gücdür. Gərginlik və çıxış cərəyanı ilə müəyyən edilir. Bu parametrlər batareyaya daxil olan günəş süasının intensivliyindən asılıdır. Alınan elektrik enerjisini aklumyasiya etmək və axşam saatlarında istifadə etmək üçün akklumyatorlar da yığmaq mümkündür. Akklumyatorlar kimyəvi cərəyan mənbəyidir.

Məlumat üçün bildiririk ki, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən, alternativ və bərpa olunan enerjinin kənd təsərrüfatına tətbiqi ilə əlaqədar Samux Agro-Enerji və Yaşayış Kompleksində(Samux AEYK) günəş su nasos və avtomatik suvarma sistemləri artıq yaradılmışdır. Təcrübə sınaq işləri üçün secilən ərazidə yüksək elektrik gərginliyi təmin edə biləcək günəş elektrik stansiyası, hər biri saatda 80-100 kub metr su verimliliyi olan 3 ədəd artezian quyusu, ekstensiv üsulla suvarılan yonca sahələri, müasir üslubda qurulmuş üzüm və meyvə bağı, suvarma sistemiləri mövcuddur. İlk növbədə qeyd etmək lazımdır ki, Samux AEYK-də Günəş Elektrik Stansiyası normal fəaliyyət göstərir, enerji istehsalı yerli hidrometroloji şəraitə uyğundur. ABOEM enerjisi fəaliyyət göstərən suvarma sistemi üzrə pilot layihənin həyata keçirilməsi üçün Samux Günəş Elektrik Stansiyası tamamilə uyğundur. Su mənbələrinə gəldikdə qeyd olunmalıdır ki, ərazinin suvarma suyuna olan tələbatı hələlik 3 artezian vasitəsilə həyata keçirilir. Birinci artezian inzibati binanın 100 metrliyində yerləşir, 32 kVt-lıq nasosla saatda 80 m^3 su çıxarılır və 100 mm-lik polietilen boru xətləri ilə sahəyə verilir, buradakı yonca əkinləri suvarılır, texniki məqsədlər üçün istifadə olunur və s. İkinci artezian istixanaların qərbində yerləşir və əkinlərin damcılama üsulu ilə suvarılması üçün istifadə olunur. Ərazidə 6 ədəd 15 tonluq rezervuar mövcuddur. Üçüncü artezian quyusu meyvə baglarının suvarılması üçün istifadə olunur. Suvarmanın nəticəsi olaraq gilas, şaftalı, gavalı, nar, üzüm sahələri normal inkişaf edir. Onların arasına qarpız, günəbaxan, qarğıdalı və s. bitkilər əkilmişdir.

Günəş, su nasosları sistemlərinin strukturu və iş prinsipi belədir.



Sək.1. Sturktur sxem.

Sistem əsasən günəş paneli, invertor/kontroller, dərinlik və digər nasoslarından ibarətdir.

- Günəş paneli günəşdən aldığı şüaları enerjiyə çevirir, günəş su nasosu invertor/kontrolleri günəş şüalarının elektrik enerjisinə konvertasiyası və günəş şüalarından tam istifadə etməklə nasos sisteminin idarə və nəzarət olunması funksiyasını icra edir. Gücləndirici az miqdarda günəş paneli tətbiq etməklə enerji təminatını həyata keçirir. Nasos suyu və ya digər mayeni qaldırmaq üçün istifadə edilir.
- İş prinsipi: günəş paneli elektrik enerjisini invertora ötürür. İnvertor sabit cərəyanı dəyişən cərəyana çevirir və nasosa ötürür, günəşin intensivliyini nəzərə alaraq sistemi çalışdırır.
- Günəş nasos siteminin üstünlükləri: sistemin əmək sərf etmədən avtomatik çalışması, bütün növ nasoslar üçün uyğunluğu (3 faza dəyişən cərəyan nasosları daha cox məsləhət görülən), (1 faza dəyişən cərəyan nasosları və sabit cərəyan nasosları daxil olmaqla), giriş gərginliyinin diapazon genişliyi bütün növ PV panellərdən istifadə etməyə imkan verir. Sistemin təhlükəsiz 24 saat çalışması, hibrid enerji təchizatının qurulması, məsafədən idarə olunması və fərdi monitorinqin aparılması mümkünlüyü, yüksək səmərəlili daxili MPPT nəzarət sistemi, nasosun xüsusi qorunması sistemi, uzaqdan təhlükəsiz izləmə və idarəetmə sistemi, "on-grid və off-grid" sistemləri, stabil çıxış tezliyi olması.
- Məsafədən idarəetmənin mümkünlüyü: İnternetin mövcud oldugu istənilən yerdən nasos siteminin monitorinqi və idarə olunması, sistemin cloud/web sistemlərinə inteqrasiyasının mümkünlüyü, sistemin məsafədən diaqnostika və re-konfiqurasiyası, suvarma sistemləri və idarəedici qurgulara tətbiqi (torpagın nəmliyinə, suyun səvviyəsinə, havanın rütubətinə görə işləməsi imkanları).

Əlbətdə məsələnin kökündə enerji mənbəyi kimi əraziyə düşən günəş radiasiyası durur. Bu baxımdan radiasiyanın ölçülməsi vacib məsələdir. Burada qeyd etmək istərdim ki, ölkə ərazisinə düşən radiasiyanın ölçülməsi məqsədilə Dövlət Agentliyinin sifarişi ilə müxtəlif bölgələrdə 2011-ci ildən başlayaraq Günəş Müşahidə Stansiayalrı quruldu ki, bu da gün ərzində günəşi izləməklə əraziyə düşən radiasiyanı ölçməyə imkan verdi. Günəş izləyici (STR-21G tipli) ilə təmin olunmuş stansiyanın yüksək sinfi dəqiqliyi olan piranemometrləri (MS-802 tiply) üfiqi müstəviyə düşən radiasiyasını ölçməyə və xüsusi reqistratorun (CR-1000 tipli) uygun yaddaşı hər on dəqiqədən bir alınan məlumatların arxivləşdirilməsinə, eyni zamanda GPRS/GSM sistemini dəstəkləyən modem (Fastrack XTND) təchizatı qiymətli günəş məlumatlarını (günəşin azimutu və zeniti də daxil olmaqla düz, diffuz olunan, global, cəm radiasiya, temperatur, rütubət və təzyiq ölçmələrini) idarə etmə mərkəzlərinə ötürməyə imkan verir. Belə avadlıqdan biridə Samux AEYK-də quraşdırılmışdır. Eyni zamanda ölkəmizin müxtəlif bölgələrində quraşdırılan hündürlüyü 85m olan Külək Ölçü Müşahidə stansiyalarının da üzərində günəş radiasiyasın ölçmək üçün piranemometrlər quraşdırılmışdır.

Şək. 2. Samux günəş monitoring stansiyası.

Müqaisə üçün yerli müşahidə stansiyalarıyla Dünya Bankının hazırladıgı "Global Günəş Atlası" onlayın proqramının məlumatlarını götürək. Müşahidə stansiyası üzrə 16.04.2017-

16.05.2017-ci il tarixlərində stansiyanın sensorları ilə qeydə alınmış və reqistratorunda arxivləşdirilmiş müşahidə məlumatları əsasında əraziyə düşən cəm radiasiya və qlobal radiasiyanın qrafikləri qurulmuşdur.



Qrafik 1. Cəm radiasiya, (kVt·s /m^2 gun).



Qrafik 2. Global radiasiya (Vt·s /m^2 gün).

Stansiya məlumatlarının analizi göstərir ki, ərazidə günəş potensialı yüksəkdir və bu da günəş texnalogiyalarını tətbiq etməklə kənd təssərrüfatını inkişaf etdirməyə imkan verir.



Düz düşən və Diffuz olunan radiasiya



Düz düşən və Qlobal radiasiya



Diffuz olunan və Global radiasiya

Şək. 3. Düz, Diffuz və Qlobal radiasiya.

Əraziyə düşən günəş radiasiyası Dünya Bankının "Qlobal Günəş Atlası"nda da öz əksini tapmışdır. Əraziyə düşən gündəlik və illik orta radiasiya 4.3kVt·s/m²gün/1580kVt·s/m^2 il təşkil edir.



Şək. 4. Qlobal Günəş Atlası.

Günəş radiasiyasına görə PV-dən enerji istehsalı aşagıdakı çədvəldə göstərilmişdir.

Cədvəl 1.

Fotovoltaik enerji istehsalı

Orta göstərici	Qlobal üfiqi rad. (kVt·s / m^2)	Düz normal rad. (kVt·s / m^2)	Diffuz rad. (kVt·s / m^2)	Qlobal əyilmiş rad. 34 dərəcə əyilmiş uzunmüddətli illik və gündəlik orta (kVt·s / m^2)	34^0 əyilmiş gücü 94.5 kVt olan fotovoltaik sistem uzunmüddətli illik və gündəlik orta enerji istehsalı		Temperatur (^{0}C)
					PV enerjisi (kVt · s)	Qlobal əyilmiş rad. (kVt·s / m^2)	
Orta il	1510	1426	658	1747	127921	1741	
Orta gün	4.1	3.9	1.8	4.7	350.2	4.7	15

Samux AgroEnerji və Yaşayış Kompleksidə dərinliyi 100 metr olan artezian quyusundan günəş enerjisinə görə PV panellərlə istehsal olunan enerji və su hasilatı qrafiki tərəfimizdən hazırlanmışdır. Burada tətbiq olunan su nasosunun gücü 62kVt·s-dır.



Qrafik 3. Günəş radiasiyası orta illik 1570kVt·s/m^2, günlük 4,3kVt·s/m².



Qrafik 4. Orta illik 136500 kVt, günlük enerji istehsalı 374kVt.



Qrafik 5. Orta illik 259000m^3, günlük su hasilatı 709 m^3.

Günəş su nasos sisteminin xarakteristikasi belədir.



Qrafik 6. Nasosun xarakteristikası.



Qrafik 7. PV-nin xarakteristikası.

Cədvəl 2.

Nasos və PV xarakteristikası

Əsas komponentlər	Texniki parametrlər	Ölçü vahidi	Min.	800Vt/m2 200C	Max./STC*^{0}C
PV generatoru	Hücrə temperaturu	0C		46	25
	Temperatur itkisi	%		8.8	
	Çirklənmə faizi	%		10	
	Çıxış gücü	Vt		64.200	97.750
	*MGG	V		638	699
	*MGC	A		101	140
	*ADG	V		787	865
	*QQC	A		109	150
	P çıxışı	Vt		64.200	
	V çıxışı	V		637	
	İ çıxışı	A		101	
Motor kabeli	Enerji itkisi	%	1.3	2.4	2.8
Nasos sistemi	Motor gücü	Vt	20.600	62.600	72.400
	Motor gərginliyi	VAC	281	361	380
	Motorun cərəyan şiddəti	A	50	119	131
	Motor sürəti	rpm	2.095	2.685	2.840
	Tezliyi	Hz	37	47	50
	Su sərfi	m3/saat	2.4	153	172
	Səmərəlilik	%	3.2	66	66
Boru	Axının sürəti	m/s	0.027	1.7	1.9
	Sürtünmə itkisi	m	0.001	1.2	1.4

* STC-Standart test şəraiti 1000Vt/m^2 radiasiya 25^{0}C hücrənin temperaturu , *MGG – Maksimum gücdə gərginlik, *MGC –Maksimum gücdə cərəyan, *ADG – Açıq dövrə gərginliyi, *QQC-Qısa qapanma cərəyanı.

Tətbiq sahələri müxtəlifdir. Yeraltı suyun azalması, suvarma sistemləri, sənaye tətbiqi, damla suvarma və yağmurlama sistemi, çənin doldururlması, təbii qoruqun su təchizatı, pivot sistemləri, kənd su təchizatı, maldarlıq, quşçuluq, hovuz, fəvvarələr və s.

Şək.5. PV tətbiq və quraşdırma üsulları.

Növbəti çədvəldə əraziyə düşən gündəlik və illik orta radiasiya (4.3KVt·s/m² gün/1580KVt·s il) təşkil etdiyi halda nasosların hesabatı hazırlanıb. Bu zaman suyun temperaturu-25^{0}C, PV çirklənmə itlikəri 10%, PV quraşdırma bucagı 34-40^0 götürülmüşdür.

Cədvəl 3.

Günəş su nasos sistemlərinin texniki göstəriciləri.

Nasos	Motor tex/gös.		Stansiyanın gücü və enerjisi isteh.			Arteziandan su hasilatı			FIƏ
	su (m³)	Motor gücü (kVt·s)	PV/güç (kVt·s)	Enerji (gün) (kVt·s)	Enerji (il) (kVt·s)	Dərinli (m)	Su (gün) (m3)	Su (il) (m³)	Səmərəlilik I/Vt
PSK2-100 C-SJ120-8	182	75	110	418	152500	80-160	834	304500	7.6
PSK2-40 C-SJ95-7	119	30	51.75	199	72500	80	500	182500	9.7
PSK2-100 C-SJ95-17	113	75	143	547	199500	100-300	900	328500	6.3
PK2-21 C-SJ42-10	62	15	30.0	115	42050	40-90	312	113500	10
PS -4000 C-SJ30-2	44	4	6.0	23	8410	22	209	76200	35
PSK2-100 C-SJ95-17	113	75	172.5	662	242000	100-300	717	261000	4.2
PSK2-7 C-SJ30-6	42	5.5	11.0	44	16100	30-50	204	74300	18
PS2-4000 C-SJ17-4	26	4	6.0	23	8410	45	107	38850	18
PSK2-21 C-SJ75-4	112	15	26.25	101	36800	20-55	423	154000	16
PSK2-21 C-SJ42-10	62	15	30.0	115	42050	40-90	311	113500	10

Günəş su nasoslarının növləri müxtəlifdir.

Tipi: PS9k:
Dərinlik: 20-80 м
Saatlıq su sərfiyyatı: 33 -120 м3/s

PS15k
12-80 м
41-279 м3/s

PS21k
16-80 м
63-306 м3/s

Şək. 6. Səth nasosları.

Tipi: PS-HR:
(helikoidal rotor)
Dərinlik: 50-350 м
Saatlıq su sərfiyyatı:
2,5-3,9 м3/s

PS-C
(mərkəzdəqaçma)
20-160 м
4-79 м3/s

PSk
(mərkəzdəqaçma)
120-180 м
118-136 м3/s

Şək. 7. Dərinlik nasosları.

Smart sistemin və elektron idarəetmənin qurulması. GSM-GPRS sistemləri. Ümumi şəbəkənin strukturu barədə aşagıdakıları diqqətinizə çatdırırıq.

Sək. 8. Sistemin struktur sxemi.

Beynəlxalq təcrübə göstərir ki, fiziki və hüquqi şəxslərin suvarmaya sərf etdikləri vaxta qənaət etmək məqsədilə dünyada mövcud olan texnalogiyalardan istifadə etməklə suvarma sistemlərini avtomatlaşdırmaq mümkündür. Belə ki, smart sistem həm suya, həm də enerjiyə qənaət baxımından da sərfəlidir. İdarəetmə qurğusunun işinə mikroprosessor vasitəsilə yüksək keyfiyyətlə nəzarət olunur. Bu sistemlərin tam avtomatlaşdırılması üçün digər ölçü cihazları ağıllı idarəetmə sisteminə başqa bir məlumat ötürücü vasitələrilə inteqrasiya oluna bilər. Bu vaxt torpağın temperaturu və rütubətliliyi təyin edilir, məlumatlar sistemin idarəetmə blokuna ötürülür və idarəetmə bloku alınan məlumatlara əsasən su nasosunu istənilən zamanda avtomatik işə salır və yaxud söndürür. Həmçinin, əlavə xüsusi proqramlar təminatı hazırlamaq və tətbiq etməklə hətta sahəyə vurulan saatlıq və ya sutkalıq suyun və istifadə olunan elektik enerjisinin hesabatını aparmaq mümkündür. Məlumat üçün bildiririk ki, elm və texnikanın bugünkü inkişafı imkan verir ki, alternativ və bərpa olunan enerji hesabına qidalanan su nasosları və digər buna bənzər qurğular və sistemlər, həmçinin su anbarları, su quyuları və orada quraşdırılmış avadanlıqlar məsafədən idarəetmə tətbiq etməklə idarə olunsun. Bu gün respublikamızda fəaliyyət göstərən simsiz telefon provayderlərinin GPRS/GSM sistemlərindən istifadə etməklə günəş su nasosu (və digərləri) stansiyasının məlumatlarını onlayın əldə etmək və idarə etmək də mümkündür.

Şək. 9. Dəstəklənən funksiyalar.

Kontroler günəş su nasos sisteminin çox funksiyalı əsas elementlərindən biridir. O mürəkkəb qoşulma sxeminə malikdir və dizel generatorunu və ya şəbəkəni, PV günəş panellərini bu və ya digər formada idarə etməklə nasosun enerji təchizatını təmin edir, eyni zamanda sistemin internet üzərindən idarə olunması üçün şərait yaradır. NK-nın 918s saylı tapşırığında elektron idarə etmənin tətbiqi qeyd olunmuşdur. Qeyd etmək istəyirik ki, elektron idarəetmənin mərhələli həlli üçün əvvəlcədən ətraflı araşdırılmış bir sistem hazırlanmalıdır. Bu layihə hazırlanan zaman bütün detallar nəzərə alınmalıdır. Respublikamızın ərazisində mövcud olan və tikilməsi layihələndirilən artezian su quyuları, su anbarları və digər su mənbələrinin internet üzərindən bir mərkəzdən idarə olunması mümkündür. Bunun üçün mərhələli həll variantını tətbiq etmək lazımdır və məsələyə kompleks yanaşılmalıdır. İlk növbədə, artezian su quyularına su nasoslarının tətbiqi, onların internetə çıxışının təmini və qlobal idarə etməyə hazırlanması lazımdır. Sonra SCADA kontrol sistemlərini tətbiq etməklə bir mərkəzdən idarəetmənin qurulmaq olar. Nəticədə həm stansiyaların yerləşdiyi ərazilər barədə, həm də işlək vəziyyətdə olub-olmaması barədə məlumat almaq və onun real vaxt rejimində idarə olunmasını həyata keçirmək mümkün olacaq. Bu da həm sudan səmərəli istifadəyə gətirib çıxaracaq, həm də elektrik enerjisi sərfiyyatını minimuma endirəcək və beləliklə kənd təsərrüfatının inkişafına təkan verəcək. Belə ki, elektrik enerjisi təchizatının əlçatmaz olduğu bölgələrdə əkin-biçin sahələrinin suvarılması asanlaşacaq və məhsulun hətta maya dəyərinin aşağı düşməsinə, eyni zamanda həmin əlçatmaz ərazilərdə yerləşən torpaqların reabilitasiyasına səbəb olacaq.

Əlavə olaraq bildirmək istərdik ki, hal-hazırda Mərdəkan quşçuluq kompleksində də gücü 2.2 kVt olan Günəş su nasos sistemi qurularaq istifadəyə verilmişdir. Nasos gücü 0.75kVt, quyunun dərinliyi 67m, nasos dərinliyi 56m, saatlıq su vurma $3m^3$-dir.

Şək.10. Günəş su nasos sistemi.

Qeyd etmək istərdik ki, stansiya şəbəkə və şəbəkəsiz fəaliyyət göstərir. Hal-hazırda şəbəkəsiz qoşulmuşdur və yay mövsümü üçün günəşli gündə sutka ərazində 8-9 saat su vura bilir.

Nəticə və təkliflər: Hesab edirik ki, günəş su nasos sistemləri ölkə ərazisində tətbiq olunarsa bu zaman suya, enerjiyə qənaət olunacaq, havanın çirklənməsinin qarşısı alınacaq, əlverişsiz ərazilərdə münbit olan torpaqlar istifadə olunacaq. Bu gün dünyada texnika və texnalogiyalar inkişaf edir, daha ekanom, səmərəli yeni sistemlər yaradılır. Əlbətdə bizimdə işlərimiz bununla bitmir, araşdırmaları davam etdiririk günəş radiasiyasından maksimum yararlanmaq üçün günəş su nasos sistemlərinə daha optimal variantlar tətbiq etməyə çalışırıq. Bunlardan biri günəş izləyicinin günəş su nasos sistemlərinə tətbiqidir. Bunula yanaşı bir başa sabit cərəyanla çalışan su nasoslarıda bizim maraq dairəmizdədir. Eyni zamanda külək və günəş potensialının birgə mövcud oldugu ərazilərdə hibrit tipli su nasos stansiyalarının qurulması da aktual məsələdir.

Günəş su nasos sitemlərinin özəl fermer təssərrüfatlarına tətbiqi və ümumiyyətlə respublikamızda inkişafı üçün aşağıdakılar təklif edilir:

1. Respublika prezidentinin 16 aprel 2015 tarixli fərmanı ilə suvarma sistemləri dəstinə və avadanlıqlarına aqrolizing yoluyla tətbiq olunan 40%-li güzəşt paketinə alternativ və bərpa olunan enerji qurguları və bu enerji ilə çalışan su nasoslarının (kompanentlərilə birlikdə) əlavə edilməsi, agrolizing vasitəsilə günəş su nasos sistemlərinin və avadanlıqlarının satışı;
2. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə ölkə ərazisində günəş (hibrit də ola bilər) su nasos və smart suvarma sistemləri layihələri icra etmək üçün

büdcədən hər il əlavə vəsait ayrılması, respublika ərazisində fəaliyyət göstərən banklar tərəfindən günəş (və ya hibrit) su pompaları və smart suvarma sistemlərinin maliyələşməsi üçün fermerlərə güzəştli kreditin ayrılması, investisiyaların cəlb edilməsi, yaşıl investisiyalar, yaşıl maliyyənin təşviq edilməsi;

3. Günəş (və ya hibrit) su nasosu və smart suvarma sistemlərinin komponentlərinin respublikamızda istehsalı üçün şəraitin yaradılması, və yaxud xaricdən daxil olunan günəş (və ya hibrit) su nasos avadanlıqlara tətbiq olunan kömrük rüsumunun azaldılması.

---

1. *Veshenevsky S.N.* Elektrik ötürücüsündə mühərriklərin xüsusiyyətləri. - M .: Enerji, 1979.
2. *Perelmuter V.M.* AC motorlarının fırlanma anı və cərəyanına birbaşa nəzarət. Xarkov. Əsas, 2004.
3. *Cəfərov T.D.* “Energetika –varlıqla, yoxlugun astansinda”.
4. *Məmmədov R.R.* “Günəş enerjisiylə işləyən su nasos agreqatının mikroprosesor elektrik ötürücüsü” hazırlanması mövzusunda magistr diplom işinin materialı.(Ukrayna Milli Texniki Universiteti, Xarkov Polotexnik İnstitutu, Elm-Təhsil İnstitutu "Enerji, Elektronika və Elektromexanika" "Avtomatlaşdırılmış Elektromexaniki Sistemlər" kafedrası).
5. *Məmmədov R.R.* Rasim_Solar water pumping_Azeri.pdf (http://area.gov.az/news/146**).**
6. Dünya Bank Qrupunun. Global Solar Atlas onlayın proqramı (https://globalsolaratlas.info/).
7. Almaniyanın Lorentz şirkətinin rəsmi veb saytı və COMPASS proqram təminatı (https://www.lorentz.de/).
8. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC (http://www.mst.gov.az/).
9. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi veb saytı (www.area.gov.az).
10. ABŞ Campbell Scientific şirkətinin veb saytı (https://www.campbellsci.com/).

СОЛНЕЧНЫЕ ВОДЯНЫЕ НАСОСЫ И ИХ ПРИМЕНЕНИЕ

МАМЕДОВ Р.Р.

Целью статьи является демонстрация возможности откачки воды из артезианских скважин и других источников воды посредством использования солнечных водонасосных систем на территории Азербайджанской Республики, а также возможность дистанционного управления системой. В статье рассматривается отчет солнечной энергии и электричество, которое производится в жилом комплексе «Самух Агроэнергия», и показывается извлечение воды из скважины. Кроме того, предоставляется информация о структуре, технических характеристиках, а также о принципах работы солнечной системы водяного насоса

Ключеве слова: солнце, вода, насос, умный, орошение, станция, систем.

SOLAR WATER PUMP SYSTEMS AND APPLICATIONS

MAMMADOV R.R.

The purpose of the article is to demonstrate the possibility of pumping water from artesian wells and other water sources through the use of solar water pump systems in the territory of the Republic of Azerbaijan, as well as the ability to remotely control the system. The article discusses the report of solar energy and electricity, which is produced in the residential complex "Samukh Agroenergy", and shows the extraction of water from the well. In addition, information is provided on the structure, technical specifications, and principles of operation of the solar water pump system

Keywords: solar, water, pump, smart, irrigation, energy, station, system.

UOT: 535.317

SİLİSİUM FOTOELEMENTLƏRİNİN GÜNƏŞ BATAREYALARINDA TƏTBİQİ

[1]KƏRİMOV E.Ə., [2]MUSAYEVA S.N.

[1]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azadlıq pr. 16/21, AZ 1010
[2]Azərbaycan Texniki Universiteti, H. Cavid pros. 25, AZ 1073
E-mail: hikmet_2005@mail.ru

Elektron – deşik keçidinə malik silisium fotoelementlərinin günəş şüalanmasının çevrilməsi (gün işığı birbaşa düşərkən) və fotoelementin temperaturu 25^0C olduğu zaman f.i.ə.-i 24,7%-ə çatır. Nəzərə çarpmayan soyudulma zamanı (məsələn, 0^0C-yə qədər) f.i.ə.-nin artımına nail olmaq mümkündür. İlk baxışdan elə görünə bilər ki, f.i.ə.-ni intensivliyi artırmaq (məsələn, linzalar tətbiq etməklə) və silisium üçün 28%-ə çatan əksolunma əmsalını azaltmaqla yüksəltmək mümkündür. Lakin, nəzərə almaq lazımdır ki, artıq yük daşıyıcılarının konsentrasiyası artdıqca onların yaşama müddəti azalır ki, bu da f.i.ə.-nin artmasını ləngidir.

Açar sözlər: yarımkeçirici, fotoelement, silisium kristalı, şüalanma enerjisi, udulma enerjisi.

Məqalədə yarımkeçirici fotoelementlərin köməyi ilə günəş şüalanması enerjisini elektrik enerjisinə birbaşa çevrilməsi imkanlarına baxılmışdır. Silisium kristallarının əsas elektrik və optik xassələri araşdırılmış, onların alınması və elektrik xassələrinin kiçik miqdarda aşqarların daxil edilməsi vasitəsi ilə idarə olunması üsulları təsvir edilmişdir. Elektron – deşik keçidinə malik fotoelementlərin işləmə prinsipi, onların spektral həssaslığını və f.i.ə.-ni müəyyən edən əsas parametrlər araşdırılmışdır.

Ölkəmizin enerji daşıyıcıları ilə zəngin olmasına baxmayaraq, bərpa olunan enerji mənbələrindən geniş surətdə istifadəyə mühüm yer ayırır. Aydındır ki, nəhəng enerji mərkəzlərindən əlavə sadə və uzun ömürlü kiçik gücə malik, texniki xidmət tələb etməyən və səhra, stasionar radionöqtələrin, telefon xətlərinin qidalanması və ya evlərin işıqlandırılması üçün elektrik enerji mənbələrinin olması vacib şərtdir.

Günəş enerjisinin elektrik enerjisinə (elektrik enerjisi dedikdə elektronların kristalda enerjisi başa düşülür) birbaşa çevrilməsi fotonların udulması və elektron-deşik cütünün yaranması prosesi zamanı həyata keçir. Lakin, işığın udulma oblastının yaxınlığında elektron-deşik keçidinin olmaması nəticəsində yarımkeçiricidə yük daşıyıcıların konsentrasiyasının artması baş verəcəkdir.

Enerji çevirmə qabiliyyətli fotoelementlərin işləmə prinsipini izah edən, yarımkeçiricidə elektron-deşik keçidinin yaxınlığında energetik hallar diaqramına nəzər salaq.

Şəkil 1-də qadağan zonası ilə ayrılmış keçiricilik və valent zonaları göstərilmişdir. Şəkildən göründüyü kimi elektron-deşik keçidi oblastında hündürlüyü E_0-a yaxın olan V_k potensial çəpəri mövcuddur. Qeyri-tarazlıqda olan elektron və deşiklər (şüalanmanın udulması zamanı yaranan) elektron-deşik keçidi oblastına diffuziya edirlər. Hesab etmək olar ki, elektron-deşik keçidinin potensial çəpəri onları "ayırır", yəni elektronlar sərbəst şəkildə elektron keçiriciliyi oblastına keçərək bu oblastı mənfi, deşiklər isə deşik oblastına keçərək bu oblastı müsbət yükləyirlər.

Yük daşıyıcıların konsentrasiyasının dəyişməsi hesabına potensial çəpərin V_k hündürlüyü azalır. Əgər xarici dövrə açıqdırsa, artıq yük daşıyıcıların ilkin diffuziya cərəyanının, P–oblastında fəza deşik yüklərinin, eləcə də N–oblastında elektronların toplanması ilə şərtlənən və bu cərəyanın əksi istiqamətdə yönəlmiş cərəyanın dinamik tarazlığı qərarlaşır. Əgər xarici dövrə qısa qapanıbsa bütün diffuziya cərəyanı bu dövrədən keçəcəkdir. Aralıq halda xarici dövrədə və kristalın daxilində cərəyanların budaqlanması baş

verir. Bu cərəyanların cəmi əvvəlki kimi aşağıdakı ifadədən təyin olunan diffuziya cərəyanına bərabər olacaqdır:

$$I = q\alpha N,$$

burada, N – şüalanma nəticəsində generasiya olunan cüt yük daşıyıcıların tam sayı, α - vahiddən kiçik olub, yük daşıyıcıların istifadə olunma əmsalı adlandırılır [1].



Şək. 1. Silisiumda elektron – deşik keçidinin energetik diaqramı.
1 – keçiricilik zonası; 2 – valent rabitə zonası; 3 - Fermi səviyyəsi;
4 – fotonun udulması və ya sürətli zərrəciklə ionlaşma zamanı
elektron–deşik cütünün yaranması; 5 – deşik keçiriciliyi zonası;
6 – elektron – deşik keçidi zonası; 7 – elektron keçiriciliyi zonası.

α - kəmiyyəti şüalanmanın udulma əmsalı, elektron və deşiklərin uyğun olaraq L_n və L_P–diffuziya uzunluqları, yük daşıyıcıların səthi rekombinasiya sürəti və fotoelementin həndəsi ölçü və forması ilə təyin olunur. Sadə halda, yəni kristalın ölçüləri diffuziya uzunluğundan böyük olarsa şüalanma bərabər və yalnız elektron oblastında udulur:

$$I_D = qNL_p$$

Burada, I_D – diffuziya cərəyanının sıxlığı, N – 1 sm^3-da 1 saniyə müddətində generasiyadır.

$$I_n = I_0\left(e^{\frac{qU}{kT}} - 1\right)$$

$$I = I_D - I_0\left(e^{-\frac{qU}{kT}} - 1\right)$$

Şəkil 2-də günəş batareyası elementinin təqribi ekvivalent sxemi verilmişdir.



Şək.2. Şüalanma enerjisini çevirən yarımkeçiricinin ekvivalent sxemi
və volt – amper və yük xarakteristikalar. 1 – elektron – deşik keçidinin

Qısa qapanma cərəyanına bərbər olan I_D - diffuziya cərəyanı şüalanmanın udulması ilə şərtlənir. Bu cərəyan budaqlanır: I-yə bərabər olan bir hissəsi R – yükü dövrəsinə keçir, I_n-ə

bərabər olan digər hissəsi isə yük daşıyıcıların keçid daxilindən əks daşınmasının nəticəsi olur və ayrılan enerjinin uyğun hissəsi itirilir.

I_n – cərəyanı elektron – deşik keçidinin adi volt-amper xarakteristikasından təyin olunur:

$$I_n = I_0\left(e^{\frac{qU}{kT}} - 1\right),$$

burada, U – elementin çıxışında potensiallar fərqidir.

Beləliklə, generatorun daxili müqaviməti yükdən axan cərəyanın və yükün qiymətinin funksiyası olacaqdır. Enerji çeviricisinin f.i.ə.-nin sərhəd qiyməti üçün ifadə $\alpha = 1$ qəbul edilərsə - yəni rekombinasiya olmazsa, sadə şəkildə yazıla bilər. Bu halda yaranan bütün qeyri-tarazlıq halında olan yük daşıyıcılar elektron – deşik keçidi daxilindən diffuziya edir. Əgər ilkin prosesdə (fotoeffekt, ionlaşma) cüt yük daşıyıcıların yaranmasına W – enerjisi sərf olunubsa, potensiallar fərqi U, R – yükünə budaqlanan cərəyan hissəsi I/I_D olduğundan η - f.i.ə. aşağıdakı kimi ifadə olunar:

$$\eta = \frac{qU}{W} \cdot \frac{I}{I_D} = \frac{qU^2}{RWI_D}.$$

Monoxromatik işığın enerjisinin çevrilməsi zamanı

$$W = h\nu,$$

yəni, ilkin udulan bütün enerji elektron – deşik cütünün generasiyasına sərf olunur. Adətən isə $h\nu - E_0$ enerjisi istilik rəqslərinə keçərək itirilir.

Yuxarıda göstərilən ekvivalent sxemdən və elektron – deşik keçidinin volt – amper xarakteristikasından belə nəticəyə gəlmək olar ki, potensiallar fərqinin V_0 maksimal qiyməti temperaturdan, sıfırda R_0 müqavimətindən və I_D diffuziya cərəyanından aşağıdakı kimi asılı olcaqdır:

$$V_0 = \frac{kT}{q} ln\left(\frac{qI_D R_0}{kT} + 1\right),$$

burada, R_0 elektron – deşik keçidinin I_0 doyma cərəyanı ilə aşağıdakı ifadə ilə əlaqədardır:

$$I_0 = \frac{kT}{qR_0}.$$

İfadədən göründüyü kimi, U_0 gərginliyi ilk növbədə I_D cərəyanı (başqa sözlə desək düşən şüalanmanın intensivliyi) və R_0 müqaviməti ilə təyin olunur. Aydındır ki, doyma cərəyanları çox kiçik olan silisiumda (10^{-7}-10^{-8} tərtibində) elektron – deşik keçidləri adətən doyma cərəyanı 10^2-10^3 dəfə çox olan germaniumda olduğundan nəzərəçarpacaq dərəcədə yüksəkdir. Bu isə silisiumda qadağan zonasının eninin (1,12 eV) germaniumun qadağan zonasının enindən (0,75 eV) böyük olmasıdır.

Nəzəri olaraq göstərilmişdir ki, elektron–deşik keçidinə malik silisium fotoelementlərinin günəş şüalanmasının çevrilməsi (gün işığı birbaşa düşərkən) və fotoelementin temperaturu 25^0C olduğu zaman f.i.ə.-i 24,7%-ə çatır. Nəzərə çarpmayan soyudulma zamanı (məsələn, 0^0C-yə qədər) f.i.ə.-nin artımına nail olmaq mümkündür. İlk baxışdan elə görünə bilər ki, f.i.ə.-ni intensivliyi artırmaq (məsələn, linzalar tətbiq etməklə) və silisium üçün 28%-ə çatan əksolunma əmsalını azaltmaqla yüksəltmək mümkündür. Lakin, nəzərə almaq lazımdır ki, artıq yük daşıyıcılarının konsentrasiyası artdıqca onların yaşama müddəti azalır ki, bu da f.i.ə.-nin artmasını ləngidir [2]. Məlum interferensiya üsulu ilə əksolunma əmsalının azaldılması dalğa uzunluqlarının çox kiçik verilmiş intervalında mümkündür və çox güman ki, günəş enerjisinin çevrilməsində az mənfəət verə bilər.

Fotoelementlər günəş batareyaları adlandırılır. Bu batareyalar böyük sahəyə malik (4-5 sm^2) şüalanma düşən səthə çox yaxın yerləşmiş elektron – deşik keçidli silisium kristallarıdır (şəkil 3).

Günəş şüalanmasının ən effektli çevrilən hissəsi üst səthdə təxminən 25 mikron dərinlikdə udulur. Elektronlarının və deşiklərinin 0,2 – 0,5 mm-dən az olmayan lazımi diffuziya uzunluqlarına malik silisium monokristallarının alınması məsələsi böyük çətinliklərlə bağlıdır. Bu məqsəd üçün mürəkkəb kimyəvi təmizləmə və bestigel zona əridilmə yolu ilə son təmizləmə, həmçinin xüsusi hazırlanmış kvarsdan tiqllərdə monokristalların hidrogen və ətalətli qazların atmosferində yetişdirilməsi üsullarından istifadə edilir.

Digər texniki çətinlik görünən və infraqırmızı şüalanmalara şəffaf olan səth elektrodunun çəkilməsi prosesində meydana çıxır.



Şək. 3. Silisiumlu günəş batareyasının en kəsiyi.

Bu, eləcə də kristalın səthindən verilmiş dərinlikdə elektron – deşik keçidinin alınması məsələsi aşqar atomların termiki diffuziyası üsulundan istifadə etməklə həll olunur. Ən yaxşı nəticələr silisiumun ərimə temperaturuna yaxın temperaturlarda (1400^0C) n-silisiumda akseptor rolunu oynayan borun diffuziyası prosesini tətbiq etməklə alınır [3,4]. Mümkün olan üsullardan biri n-silisiumdan (tərkibində arsen elementi olan) hazırlanmış lövhələrin tərkibində bor olan qazın atmosferində uzun müddət qızdırılması üsuludur. Borun silisiuma diffuziya dərinliyi qızdırılmanın temperaturu və müddəti ilə təyin olunur. Silisium səthə yaxın oblastda bor atomları ilə güclü şəkildə zənginləşir və kifayət qədər kiçik müqavimətli deşik keçiriciliyinə malik yarımkeçiriciyə çevrilir ki, bunun nəticəsində də xüsusi elektrodun istifadə olunmasına tələbat yaranmır. Səthdən uzaqlaşdıqca borun konsentrasiyası azalır və 2 – 3 mikron dərinlikdə bu konsentrasiya arsenin ilkin konsentrasiyasına bərabər olur. Kompensasiyaya uyğun sərhəd elektron – deşik keçidinin vəziyyətini müəyyən edir. Lövhələr soyudulduqdan sonra aşqarların atomlarının paylanması və deməli fotoelementin istənilən işlək temperaturlarında aşqarların diffuziya sürəti nəzərə alınmayacaq dərəcədə kiçik olduğundan elektron – deşik keçidinin vəziyyəti və xassələri tamamilə dəyişməz qalır.

Yer səthinə gəlib çatan günəş radiasiyasının qəbuledicisi qismində silisium fotoelementini xarakterizə etmək üçün üç əyri təsvir edilmiş 4-cü şəkilə diqqət edək.



Şək. 4. Silisium fotoelementinin spektral xarakteristikaları.
A–günəş spektrində enerjinin paylanması; B - günəş spektrində fotonların sayının paylanması; C–qısa qapanma rejimində silisium günəş batareyasının həssaslığı.

A - əyrisi günəş spektrində enerjinin paylanmasını nisbi vahidlərdə göstərir. Paylanma aydın hava şəraitində Günəş üfüqdə yerləşən zaman qurulmuşdur. B - əyrisi A - əyrisindən axırıncının λ – dalğa uzunluğuna hasili nəticəsində alınmışdır. Bu əyri spektrin müxtəlif sahələrində fotonların nisbi sayını təyin edir. C - əyrisi silisium fotoelementinin həssaslığını göstərir (qısa qapanma cərəyanına görə). Bu əyri çıxış yarığından müxtəlif dalğa uzunluqlarında fotoelementə eyni enerji seli istiqamətləndirilmiş monoxromatorun köməyi ilə alınmışdır. Sonradan həsaslığın qiymətləri həmin dalğa uzunluqlarında günəş spektrinin enerji selinin nisbi qiymətinə hasili götürülmüşdür.

Qeyd edək ki, diaqramın sol hissəsində fotonların enerjisi böyükdür və onların verilmiş enerji selinə uyğun gələn sayı aşağıdır.

1,12 eV enerjidən kiçik enerjiyə malik fotonlar silisium kristalının daxilindən keçərək elektron – deşik cütünü yaratmır. Daha böyük tezliklərə uyğun gələn fotonların artıq enerjisi faydasız olaraq silisium kristalının qızmasına sərf olunur. Bundan əlavə, elektron və deşiklərin generasiyasının kristalın səthinin yaxınlığında yəni, sturukturun defektləri və səth aşqarlarının mövcudluğundan rekombinasiyanın yüksək sürət oblastında böyük olması səbəbindən enerjinin bir hissəsi itirilir. Silisium fotoelementlərində enerji çevrilməsinin maksimal effektliyi λ = 0,75 mkm-də yəni, spektrin görünən (qırmızı) və infraqırmızı oblastların sərhədində yer alır. Maraqlıdır ki, bu dalğa uzunluğuna demək olar ki, çox dəqiq şəkildə günəş şüalanması spektrində fotonların maksimal sayı uyğun gəlir (şəkil 4-də B - əyrisi). Beləliklə, silisium fotoelementi elektron – deşik keçidinin kristalın səthinin yaxınlığında yerləşdiyi zaman spektral həssaslığa görə günəş enerjisini çevirən ideal qəbulediciyə çox yaxındır.



Şək.5. Silisium fotoelementinin e.h.q. və qısa qapanma cərəyanının 25^0 C-də şüalanma şəraitlərindən asılılıqları. 100% - birbaşa günəş şüaları ilə işıqlandırılan haldır.

Həmin elementin yük xarakteristikası şəkil 6-da verilmişdir. Absis oxunda yükdə müxtəlif müqavimətlər olduqda potensiallar fərqi yerləşdirilmişdir.



Şək. 6. Silisium fotoelementinin yük xarakteristikası.

Duman və buludlar infraqırmızı şüalar üçün nisbətən şəffaf olduqlarından günəş batareyaları buludlu hava şəraitində də işləməkdə davam edəcəkdir lakin, bu zaman onların f.i.ə. bir qədər kiçik olacaqdır. Şəkil 5-də silisium fotoelementinin 25^0 C-də e.h.q. və qısa qapanma cərəyanının işıqlanma şəraitindən asılılıqları göstərilmişdir.

Aşağı işıqlandırmalarda yük xarakteristikaları gərginliyin elə həmin bir elementə 0,3 V qiymətində maksimuma malik olur. Bu o deməkdir ki, girişdə sabit gərginlik tələb edən qəbuledici məsələn, akkumulyator işıqlanma şəraitinin geniş diapazonunda günəş batareyası ilə kombinasiyada istifadə oluna bilər.

---

1. *Дизендорф А.В., Усков А.Е.* Перспективы возобновляемой энергетики, Научный журнал КубГАУ, №114(10), 2015 г.
2. *Kərimov E.Ə.,* İrSi – SiO_2 – Si əsasında fotoqəbuledicinin alınma texnologiyası //Fizika jurnalı, 2012, cild XVIII, №3, seriya: Az. s. 6-8.
3. *Kərimov E.Ə.,* İrSi_3 – Si əsasında fotoelementin alınma texnologiyası // Fizika jurnalı, 2011, cild XVII, № 3, seriya: Az. s. 29 – 30.
4. *Kərimov E.Ə., Əliyev H.S., Musayeva S.N.* IRSI–SI kontaktı əsasında günəş batareyalarının xarakterik parametrlərinin ölçülməsi sistemi.

ПРИМЕНЕНИЕ ФОТОЭЛЕМЕНТОВ НА ОСНОВЕ КРЕМНИЯ В СОЛНЕЧНЫХ БАТАРЕЯХ

КЕРИМОВ Э.А., МУСАЕВА С.Н.

Теоретически показано, что коэффициент полезного действия кремниевых фотоэлементов с э.-д. переходами при преобразовании солнечного излучения и температуре фотоэлемента, равной 25^0C, может достигать 24,7%. Незначительное охлаждение приводит к повышению к.п.д. Казалось бы, что еще большего увеличения к.п.д. можно достигнуть, увеличивая интенсивность и снизив коэффициент отражения, достигающий для кремния 28%. Однако следует учитывать, что при больших концентрациях избыточных носителей заряда время жизни их снижается, что приводит к замедлению роста к.п.д. с интенсивностью.

Ключевые слова: полупроводник, фотоэлемент, кристалл кремния, энергия излучения, энергия поглощения.

APPLICATION OF SILICON BASED PHOTOCELLS IN SUN BATTERIES

KERIMOV E.A., MUSAEVA S.N.

It has been theoretically shown that the efficiency of silicon photocells with e-h. transitions when converting solar radiation and a temperature of the photocell equal to 25^0C, can reach 24.7%. Slight cooling leads to increased efficiency It would seem that an even greater increase in efficiency can be achieved by increasing the intensity and lowering the reflection coefficient, which reaches 28% for silicon. However, it should be borne in mind that at high concentrations of excess charge carriers, their lifetime decreases, which leads to a slowdown in the growth of efficiency with intensity.

Keywords: semiconductor, photocell, silicon crystal, radiation energy, absorption energy.

УДК.621.313

DƏNİZİN DALĞALANMASINI NƏZƏRƏ ALMAQLA SİNXRON VAL-GENERATORUN STATOR CƏRƏYANININ VƏ REAKTİV GÜCÜNÜN RƏQSLƏRİNİN ANALİZİ

[1]ABDULKADIROV A.İ., ƏLİYEV N.A., [2]RÜSTƏMOV R.M., QANİYEVA N.A.

[1]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, AZ1010, Azadlıq prospekti 20
[2] Azərbaycan Dövlət Dəniz Akademiyası,
Bakı, A1000, Z.Əliyeva küç 18
Email: ramiz.rüstəmov@mail.ru

Bu məqalənin müəllifləri tərəfindən [1,2]-də müəyyən edilmişdir ki, dənizin dalğalanması nəticəsində, avar vintinin müqavimət momentində dövrü olaraq dəyişən (fluktasion) mürəkkəbin olması səbəbindən sinxron val-generator qurğusu məcburi rəqs edir. Bununla əlaqədar olaraq eyni zamanda sinxron generatorun stator cərəyanı və reaktiv gücü də rəqs edir. Bu da öz növbəsində gəmi elektroenergetik sistemin işinə mənfi təsir göstərir və sinxron val-generatorun dizel generatorla paralel işlənməsini qeyri-mümkün edir. Bu məqalədə sinxron val generatorun rotorunun rəqslərinin müxtəlif üsullarla dempferlənməsinə baxılır və analiz edilir. Müəyyən edilmişdir ki, sinxron generatorun təsirlənmə cərəyanını tənzim etməklə rototun aralanma buçağını sıfıra gətirmək olar ($\Delta\delta = 0$). Lakin bu öz növbəsində sinxron generatorun stator cərəyanının və reaktiv gücün daha böyük rəqslərinə gətirib çıxarır. Tədqiqatların nəticəsi göstərir ki, standart konstruksiyalı sinxron generator rəqslərin dempferlənməsi məsələsini rezonans zamanı həll edə bilmir.

Açar sözlər: gəmi val generator qurğusu; sinxron generator; məcburi rəqslər; elektromexaniki rezonans; rəqslərin dempferlənməsi.

Giriş.

Dənizin dalğalanması səbəbindən avar vintinin müqaviməti momentinin dövrü olaraq dəyişməsi səbəbindən sinxron val-generatorun rotorun rəqsləri yaranır və buna uyğun olaraq stator cərəyanı və reaktiv gücü rəqs edir.

Təbii olaraq, bu gəmi elektroenergetik sisteminin işinə mənfi təsir göstərir. Dəqiq olaraq bu özünü val-generatorun dizel generatorlarla paralel işini yerinə yetirə bilməməsi ilə nəticələnir. Bəzi hallarda val-generatorun açılmasına gətirib çıxarır.

Əvvəlcə stator cərəyanının rəqsləri məsələsinə baxaq. Bu məsələ, dənizin dalğalanmasını öyrənən zaman sinxron generatorun işinin əsas məsələlərindən biridir. Stator cərəyanının rəqsi əlavə itgilər və qızma yaradır, əlavə qızma izolyasiya parametrlərinin, xüsusilə stator dolağının üst hissələrinin pisləşməsinə gətirib çıxarır.

Bundan əlavə rotorun rəqsi və onunla əlaqədar stator cərəyanının rəqsləri, stator dolağının üst hissələrində əlavə elektrodinamiki qüvvələrin yaranmasına, bununla da izolyasiyasının əlavə pisləşməsinə səbəb olur. Bunun təsdiqi olaraq, rəqsi rejimlərdə işləyən sinxron maşınların qəzalarının analizi göstərir ki, çox zaman stator dolağının üst hissələrinin izolyasiyası deşilir [**2**].

Bəzi qurğularda, məsələn kəsici maşınlarda, kompressor qurğularında və s. rəqslərin məhdudlaşdırılması üçün əlavə kütlənin val üzərində quraşdırılmasının əvvəllər istifadə edilən bu üsulu, verilmiş hədlərdə stator cərəyanının məhdudlaşdırılması məqsədi daşıyırdı. Bu hədd $\Delta \boldsymbol{i_{max}} \leq \mathbf{0,33}\ \mathrm{İ}_{\boldsymbol{nom}}$–ı aşmamalıdır [2,3].

Rotor rəqslərinin məhdudlaşdırılması üsulundan asılı olmayaraq, mahiyyətcə ilk növbədə stator cərəyanının rəqsləri məhdudlaşmalıdır.

Sinxron val-generatorunun iş şəraiti belədir ki, onun üçün baxılan hədd, azalma istiqamətinə tərəf yenidən nəzərdən keçirilməlidir. Həm də bu əhəmiyyətli dərəcədə olmalıdır.

Əsas hissə. Əvvəlcə təsirlənməsi tənzimlənməyən sinxron generator üçün stator cərəyanının rəqs məsələsinə daha ətraflı nəzər salaq.

Sinxron maşınların ümumi nəzəriyyəsinə əsasən (Park-Qoryev tənlikləri) təsirlənmə olmadıqda ($\Delta U_f = 0$) stator cərəyanının mürəkkəbələri aşağıdakı ifadələrlə təyin edilir [2]:

$$\Delta i_d = R_e[\Delta\psi_d / X_d(j\omega_v)]\ ; \qquad \Delta i_q = R_e\left[\Delta\psi_q / X_q(j\omega_v)\right] \tag{1}$$

burada $\Delta\psi_d$ və$\Delta\psi_q$ maqnit ilişmələrinin artımları, $X_d(j\omega_p)$ və $X_q(j\omega_d)$ d və q oxları üzrə induktiv müqavimətləridir.

Nəzərə alsaq ki, $\Delta\psi_d = \psi_d - \psi_{d0}$, $\Delta\psi_q = \psi_q - \psi_{q0}$ və$\psi_d = U cos\delta$,

$\psi_q = -U sin\delta$, $\psi_{d0} = U cos\delta_0$, $\psi_{q0} = -U sin\delta_0$, onda alarıq:

$$\Delta\psi_d = U(cos\delta - cos\delta_0); \quad \Delta\psi_q = -U(sin\delta - sin\delta_0\ ) \tag{2}$$

Kiçik rəqslər olduqda: $cos\delta \approx cos\delta_0 - sin\delta_0 \cdot \Delta\delta, sin\ \delta = sin\delta_0 + cos\delta_0 \cdot \Delta\delta$, qeyd edək ki, $\delta = \delta_0 + \Delta\delta$

Göstərilən şərtlər daxilində cərəyanların kompleks ifadələri belə olur:

$$\Delta i_d = \frac{-U sin\delta_0 \cdot \Delta\delta}{X_d(j\omega_v)}; \qquad \Delta i_q = \frac{-U cos\delta_0 \Delta\delta}{X_q(j\omega_v)} \tag{3}$$

(2) –i nəzərə almaqla

$$\Delta i = \sqrt{(\Delta i_d)^2 + (\Delta i_q)^2} = K_i \cdot \Delta\delta \tag{4}$$

burada

$$K_1 = U\sqrt{\left(\frac{sin\delta_0}{|X_d(j\omega_v)|}\right)^2 + \left(\frac{cos\delta_0}{|X_q(j\omega_v)|}\right)^2} \tag{5}$$

Buraxıla bilən (5-10)% xəta ilə qəbul etmək olar ki,

$$|X_d(j\omega_v)| \approx \left|X_q(j\omega_v)\right| \approx (X'_d + X_q)\ /\ 2 \tag{6}$$

Onda

$$K_i = 2U/(X'_d + X_q) \tag{7}$$

Nəticə olaraq alarıq:

$$\triangle\ i = 2\text{U}\cdot\ \Delta\delta/(X'_d + X_q) \tag{8}$$

Belə bir məsələyə baxaq: Sinxron generatorun nominal gücü $P_{nom} = 500\ kVt$, fırlanma tezliyi $n_s = 1500 d/dəq$-dir. İnduktiv müqavimətləri belədir.

$X_d = 1,075\ n \cdot v\ ;\ X_q = 0,736\ n \cdot \text{в}\ ;\ X'_d = 0,351\ n \cdot \text{в}$

İki variant üçün: a) $\Delta i_{gon} = 0,33\ n \cdot \text{в}$; b) $\Delta i_{gon} = 0,15\ \text{в} \cdot \text{в}$ hallarında, nominal gərginlik $U = 1\ n$ olduqda, (7) ifadəsinə əsasən K_i-ni və rotorun dönmə bucağının artımını təyin etməli. Həll belədir:

$$K_i = 2U/(X'_d + X_q) = 2 \cdot 1/(0,351 + 0,736) = 1.84$$

a) variantı: $\Delta\delta_{gon} = \frac{\Delta i_{gon}}{K_i} = \frac{0,33}{1,84} = 0,18\ rad$ və ya elektrik dərəcəsi ilə 10,3 el.dər. (bu generator üçün rotorun dönmə bucağı nominal rejimdə $\delta_{nom} = \pi/8\ rad = 22,5\ el.dər$)

b) variant: $\Delta\delta_{gon} = 0,15/1,84 = 0,081\ rad = 4,7\ el.dər$.

Alınmış nəticələrin analizini aparaq. (4) ifadəsindən görünür ki, tənzim olunmayan sinxron generatorun statorundakı əlavə cərəyan, rotorun meyl bucağının artımına mütənasibdir. Əgər əvvəl baxdığımız üsulla (valda əlavə kütlə qoymaqla) rotorun rəqslərini tam yox etsəydik, onda $\triangle\ i_d = 0$, $\triangle\ \text{i}_q = 0$, $\triangle\ i = 0$ alardıq. Başqa sözlə, desək statorun əlavə cərəyanlarından tam azad olardıq.

Lakin təcrübədə belə edilmir. Rotor rəqslərinin tamamilə aradan qaldırılması üçün çox böyük kütlə tələb olunduğundan qurğunun qiyməti baha başa gəlir. Ona görə də kompromis qərar qəbul edilir. Yəni stator cərəyanını müəyyən həddə qədər məhdudlaşdırırlar.

İndi bu məsələyə val-generator qurğusunun sinxron generatorunun tənzimlənməsi halında baxaq. Bu halda, rotor rəqslərinin tamamilə aradan qaldırılması üçün, yəni elektromexaniki rezonansın yox edilməsi üçün (1) əsasən $\triangle \dot{M}_{ef} = \triangle \dot{M}_{v}$ şərti ödənilir. Belə olduqda statorun əlavə cərəyanı $\triangle i_d$ yalnız rotorun meyl bucağı artımımı $\triangle \delta$- dan deyil, həm də təsirlənmə cərəyanı artımı Δi_f – dən də asılı olacaqdır. Bu halda statorun əlavə eninə cərəyanı Δi_q isə yalnız $\triangle \delta$ – dən asılı olur.

Göstərilən $\triangle i_d$ və Δi_q cərəyanları aşağıdakı ifadələrlə təyin edilir:

$$\Delta i_d = R_e\left\{\left[\frac{\Delta\psi_d}{X_d(j\omega)}\right] + \left[\frac{G_d(j\omega)}{X_d(j\omega)} \cdot \Delta U_f\right]\right\}, \tag{9}$$

$$\Delta i_q = R_e\left[\frac{\Delta\psi_q}{X_q(j\omega)}\right], \tag{10}$$

$$G_d(j\omega) = \frac{X_{ad}/r_f}{1+j\omega T_{d0}}; \tag{11}$$

(9) ifadəsində $G_d(j\omega)$ kompleks kəmiyyətini (11) ifadəsi ilə təyin edirlər. (9) və (10) ifadələrinə $\Delta\psi_d, \Lambda\psi_q$ (2) ifadələrini qoymaqla, həm də

$$X_d(j\omega) = X_d\frac{1+j\omega T'_d}{1+j\omega T_{d0}}; \quad X_q(j\omega) = X_q \tag{12}$$

nəzərə almaqla, stator cərəyanının mürəkkəbələrinin amplitud qiymətlərini tapırıq:

$$\Delta i_{d\Delta\delta} = \frac{U sin\delta_0}{X_d} \cdot \Delta\delta, \ \Delta i_q = \frac{U cos\delta_0}{X_q} \cdot \Delta\delta \tag{13}$$

$$\Delta i_{df} = \frac{X_{ad}(\Delta U_f/r_f)}{X_d\sqrt{1+(\omega T'_d)^2}} \tag{14}$$

(12) ifadəsində X_d və X_q *d* və *q* oxları üzrə induktiv müqavimətlər, T_{d0} və T'_d - isə təsirlənmə dolağının zaman sabitləridir.

Rotor rəqslərinin tamamilə yox edilməsi zamanı $\Delta\delta = 0$, cərəyan mürəkkəbələri $\Delta i_{d\Delta\delta} = 0$ və $\Delta i_q = 0$ olduğundan yalnız təsirlənmənin tənzimi səbəbindən yaranan mürəkkəbə Δi_{df} qalır.

Cərəyanların (sıfırlanması) yox olması faktı yaxşı haldır. Lakin stator cərəyanının mürəkkəbəsi Δi_{df} (14)-ə görə müqayisədə böyük alınır. Bu cərəyanın amplitud qiyməti, hesablamalar göstərir ki, hətta statorun nominal cərəyanından da çox ola bilər.

Beləliklə, elektromexaniki reonansı söndürmək məqsədi ilə təsirlənmə cərəyanının tənzimlənməsi zamanı rotorun meyl bucağının rəqsi əvəzinə statorun cərəyanının rəqslərini aldıq.

Reaktiv güc artımı ΔQ aşağıdakı ifadə ilə təyin edilir:

$$\Delta Q = U_q\Delta i_d - U_d\Delta i_q \tag{15}$$

$U_d = U sin\delta_0$ və $U_q = U sin\delta_0$ olduğunu, eyni zamanda (12) və (13) ifadələrinə əsasən cərəyanları nəzərə alsaq, ΔQ üçün nəticə ifadəni alarıq:

$$\Delta Q = \frac{U^2}{2X_d} sin2\delta_0 \cdot (\Delta\delta) + \frac{U cos\delta_0 \Delta U_f/r_f}{X_d\sqrt{1+(\omega T'_d)^2}} \tag{16}$$

İfadədən görünür ki, rotor rəqslərinin tam yox edilməsi zamanı ($\Delta\delta = 0$) reaktiv gücün birinci mürəkkəbəsi sıradan çıxır, lakin təsirlənmənin tənzimlənməsi səbəbindən yaranan ikinci hissə qalır.

NƏTİCƏ

Beləliklə, alınmış nəticələrə əsasən aşağıdakı qənaətə gəlirik. Val-generator qurğusunun adi ifalı sinxron generatoru , rezonans və ona yaxın tezliklərdə rotorun rəqslərini tam həcmdə aradan qaldırmaq qabiliyyətinə malik deyil. Əgər mümkün olursa, belə ($\Delta\boldsymbol{\delta} \rightarrow \mathbf{0}$) əvəzində stator cərəyanının və reaktiv gücün rəqsləri yaranır. Sonuncu vəziyyət isə yuxarıda qeyd edildiyi kimi həm generatora, həm də gəmi elektroenergetik sistemə mənfi təsir göstərir və dizel generator val-generatorun paralel işini praktiki olaraq mümkünsüz edir.

---

1. *Abdulkadırov A.İ., Əliyev N.A., Rüstəmov R.M.* Sinxron val-generator qurğusunda məcburi rəqslər / Energetikanın problemləri, 2019, №2, s.3-6.
2. *Абдулкадыров А.И., Рустамов Р.М.* Математическое моделирование в электромеханике / Lambert Academic Publishing (LAP), Германия, 2015, с.314
3. *Abdulkadirov A.İ., Əliyev N.A.* Xüsusi elektrik maşınları / Monoqrafiya, Bakı, Bakı, “Elm” nəşriyyatı, 2018, 215s.
4. *Абдулкадыров А.И., Рустамов Р.М.* Применение энергосберегающих принципов управления в судовых электрических установках/ Международный научный журнал «Альтернативная энергетика и экология», Россия, 2014, №21.

АНАЛИЗ КОЛЕБАНИЙ ТОКА СТАТОРА И РЕАКТИВНОЙ МОЩНОСТИ СИНХРОННОГО ГЕНЕРАТОРА ВАЛОГЕНЕРАТОРНОЙ УСТАНОВКИ С УЧЕТОМ ВОЛНЕНИЯ ТОКА

АБДУЛКАДЫРОВ А.И., АЛИЕВ Н.А., РУСТАМОВ Р.И., ГАНИЕВА Н.А.

